Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 287 (8014) CÜMƏ AXŞAMI, 20 dekabr 2018-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






## Azərbaycan Ermənistan üzərində hərbi üstünlüyünü davamlı artırır

### Yeni müasir silahlar isə işğalçı ölkəni daha çox qorxuya salır

İnkişaf göstəricilərinə görə dünyanın aparıcı dövlətləri ilə bir sırada addımlayan Azərbaycan ordu quruculuğu prosesində də kifayət qədər mühüm nailiyyətlərin müəllifi qismində çıxış edir. Sözügedən istiqamətdə görülən işlərin məntiqi nəticəsidir ki, indi Azərbaycan təkcə mövcud olduğu regionda yox, ümumiyyətlə dünya miqyasında ən güclü, hazırlıqlı, qarşıya qoyulan tapşırığı müvəffəqiyyətlə yerinə yetirməyə qadir olan orduya malik ölkələrdən biridir.

Ölkənin dinamik tərəqqi parametrlərinə uyğun olaraq Azərbaycan Silahlı Qüvvələrini gündən-günə daha da modernləşdirməkdə, onu istər şəxsi heyət, istərsə də hərbi texnika və digər maddi resurslar baxımından yüksək səviyyədə təchiz etməkdədir. Yüksək səviyyədə verilən açıqlamalardan isə aydın olur ki, qarşıdakı dövr ərzində ordumuzun ixtiyarında Ermənistanı lərzəyə salacaq yeni müasir hərbi texnikaların sayı daha da artacaq.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Sabunçu rayonunda hərbçilərə yeni mənzillərin verilməsi mərasimində çıxışı zamanı bu xüsusda çox maraqlı fikirlər səsləndirib. Azərbaycanda ordu quruculuğu prosesinin uğurla, sürətlə getdiyini bildirən dövlət başçısı qeyd edib: *"Azərbaycan dünyada güclü orduya malik olan ölkələrin sırasındadır. Ordumuzun maddi-texniki bazası möhkəmlənir, ən müasir texnika, silahlar alınır. Bu il keçirilmiş iki hərbi parad bizim hərbi gücümüzü bütün dünyaya göstərib. Bu gün ordumuz texniki təchizat baxımından dünya miqyasında seçilən ordular sırasındadır. Əlbəttə ki, bizim güclü hərbi potensialımız Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün əsas amildir. Ordumuzun döyüş qabiliyyəti artır. Bu gün ordumuz istənilən vəzifəni icra etməyə hazırdır, buna qadirdir".*

Prezident onu da diqqətə çatdırıb ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün bütün başqa amillərlə yanaşı, ən birinci amil bizim hərbi gücümüzdür, qüdrətimizdir: *"Biz gücümüzü artırırıq və artıracağıq. Onu da bildirməliyəm ki, bu il bir çox önəmli kontraktlar imzalanmışdır. Bu kontraktların icrası nəticəsində ölkəmizə ən müasir silahlar və texnika gətiriləcəkdir. Bu gün mövcud olan texnika və silahlar imkan verir ki, biz işğalçıların istənilən hərbi hədəfini yüksək dəqiqlik və böyük dağıdıcı qüvvə ilə darmadağın edə bilək. Əlbəttə, hər bir ölkənin, o cümlədən müharibə şəraitində yaşayan ölkələrin gücünü, ilk növbədə, onun hərbi qüdrəti müəyyən edir".*

Həqiqətən də ən müasir texnikaya malik olan və mənəvi-psixoloji hazırlıq cəhətdən yüksək səviyyədə olan Azərbaycan Ordusu işğal edilmiş əraziləri qısa zaman ərzində tam azad etmək gücündədir və bu, beynəlxalq dairələrdə, o cümlədən işğalçı Ermənistanın özündə də açıq etiraf olunmaqdadır. Təsadüfi deyil ki, indi işğalçı dövlətdə Azərbaycan və Ermənistan orduları arasında fərqin böyük sürətlə ölkəmizin lehinə dəyişməsinə dair etiraflar çoxalmaqda və Dağlıq Qarabağ münaqişəsinin həllinin hərbi müstəviyə keçəcəyi təqdirdə, bunun onlar üçün əsl fəlakət olacağını qəbul edənlərin sayı sürətlə artmaqdadır.

Düzdür, indi Dağlıq Qarabağ münaqişəsinin hələ sülh yolu ilə həllinə ümidlər tükənmədiyindən Azərbaycan məsələnin hərbi müstəvidə çözümünə lüzum görmür. Bununla belə Ermənistana və dünya ictimaiyyətinə yaxşı məlumdur ki, zəbt olunmuş ərazilərinin azad edilməsi üçün Azərbaycan beynəlxalq hüquq çərçivəsində hər an hərbi əməliyyatlara başlamaq və ərazilərini az vaxtda düşməndən tam təmizləmək iqtidarındadır. Bunun üçün isə Azərbaycanın hər keçən gün daha da güclənən ordusu var.

Ermənistan müzəffər Azərbaycan Ordusunun ən qısa zaman kəsiyində işğal altındakı əraziləri azad etmək iqtidarında olmasını 2016-cı ilin aprel döyüşündə, cari ilin mayında Naxçıvanda baş tutan əməliyyatlarda aydın gördü. Elə bu səbəbdən hazırda təcavüzkarın ən böyük qorxusu Azərbaycanın zəbt olunmuş ərazilərini güc yolu ilə qaytara biləcəyi ilə bağlıdır. Çünki işğalçı ölkə Azərbaycan Ordusunun bir zərbəsi ilə tam şəkildə darmadağın olacağını hər keçən gün daha yaxış görür.

*Ardı 6-cı səh.*

## Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətləri daha da möhkəmlənir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 19-da Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Sergey Morozovun bu vəzifəyə təyin olunmasından keçən qısa bir müddət ərzində Azərbaycana səfər etməsindən məmnunluğunu bildirdi və bunu uğurlu əməkdaşlığımızın təzahürü kimi dəyərləndirdi. Prezident İlham Əliyev Azərbaycanla Həştərxan arasında tarixi əlaqələrin mövcud olduğunu qeyd edərək, bu gün əməkdaşlığın genişləndiyini və birgə layihələrin həyata keçirildiyini vurğuladı və bütün bunların Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətlərinin daha da möhkəmləndirilməsi işinə xidmət etdiyini bildirdi.

*Ardı 2-ci səh.*

## Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayına

Hörmətli qurultay iştirakçıları!

Sizi Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının öz işinə başlaması münasibətilə səmimi salamlayıram.

Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-dək iqtisadi, sosialyönümlü assosiasiya və ittifaqı birləşdirmiş Azərbaycan Sahibkarlar Konfederasiyası ölkəmizdə iş adamlarının maraqlarını müdafiə edən və sahibkarlığın inkişafına dəstək verən əsas ictimai təşkilatlardandır. Ölkəmizin iqtisadi inkişafında onun özünəməxsus mövqeyi vardır.

Hazırkı mərhələdə başlıca məqsədlərimizdən biri milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin yüksəldilməsi və dünya iqtisadi sisteminə səmərəli inteqrasiyasına nail olmaqla uzunmüddətli perspektivdə ölkəmizin dinamik sosial-iqtisadi inkişafının davamlılığını təmin etməkdir. Bu istiqamətdə postneft dövrü iqtisadiyyatının müxtəlif sahələr üzrə inkişafı və biznes mühitinin yaxşılaşdırılması üçün respublikamızda mühüm addımlar atılır.

İslahatların müvəffəqiyyətlə aparılması və müxtəlif sahələri əhatə edən dövlət proqramlarının, genişmiqyaslı infrastruktur layihələrinin uğurlu icrası ölkəmizi nüfuzlu və etibarlı tərəfdaş kimi tanıtmışdır. Aparılan islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilmişdir. 2018-ci ilin oktyabrında Dünya Bankının yaydığı "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Yeni hesabatda 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşan Azərbaycan Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir. Belə yüksək nəticə məhz son illər gerçəkləşdirdiyimiz islahatlar sayəsində mümkün olmuşdur.

İqtisadiyyatın neftdən asılılığının azaldılması və rəqabətqabiliyyətli milli iqtisadiyyatın formalaşdırılmasını, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılmasını qarşıdakı illərdə strateji hədəflərimizdən biri olaraq müəyyən etmişik. Hazırda qeyri-neft sənayesi və kənd təsərrüfatı sahələrində qazanılan nailiyyətlər sahibkarlara biznes fəaliyyətini genişləndirmələri üçün əlavə stimul yaradır. Milli iqtisadiyyatın dayanıqlı inkişafında sahibkarlığın əhəmiyyətli rol oynayacağına əminliyimi ifadə edirəm.

Ümidvaram ki, qurultay zamanın çağırışlarına və milli inkişaf prioritetlərinə uyğun qərarları ilə qurumunuzun öz gələcək fəaliyyətinin daha səmərəli təşkili və sahibkarlara dövlət dəstəyinin gücləndirilməsi işinə töhfəsini verəcəkdir. Bu yolda hər birinizə uğurlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*



## İnsanların sağlamlığı dövlət üçün ən əsas vəzifədir

### Son 15 ildə 650-yə yaxın tibb müəssisəsi tikilib və ya əsaslı təmir olunub

Son illər paytaxt Bakıda, eləcə də bölgələrdə bir-birindən gözəl və yaraşıqlı, dünya standartlarına cavab verən xəstəxanalar, poliklinikalar, tibb məntəqələri, sağlamlıq ocaqları, müalicə-istirahət yerləri və s. tikilib istifadəyə verilir.

Hələ onu demirik ki, sovet dönəmindən qalma, fiziki cəhətdən köhnəlmiş və yararsız hala düşmüş onlarla bina Azərbaycan Prezidentinin, eləcə də Heydər Əliyev Fondunun diqqət və qayğısı sayəsində yenidən qurularaq yüksək səviyyədə təmir edilmiş, bərpa işləri aparılmış, son texnologiyaya məxsus tibb avadanlıqları ilə təchiz edilərək istismara verilmişdir. Azərbaycan Prezidentinin tapşırıq və tövsiyələri baxımından bunlar və digər bu kimi tədbirlərin həyata keçirilməsi, habelə səhiyyə sahəsindəki islahatlar bir məqsədə xidmət edir: Azərbaycan vətəndaşları sağlam olsunlar, sağlam yaşasınlar, yüksək səviyyəli tibbi xidmət ala bilsinlər və s.

Ölkəmizdə yenidənqurmadan sonra tibbi xidmətə başlayan səhiyyə obyektlərindən biri də bu günlərdə açılışında Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın iştirak etdikləri Səhiyyə Nazirliyinin Bakıdakı Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutudur.

*Ardı 6-cı səh.*

## Humanitar siyasət əməkdaşlığın əsasını təşkil edir

### Azərbaycan-Rusiya münasibətlərində bu, özünü daha qabarıq şəkildə göstərir

Azərbaycan tarixən qonşu xalqlarla və dövlətlərlə əlaqələri diqqət mərkəzində saxlayıb. Bu sırada Rusiyanın ilk yerdə olması heç tə təsadüfi deyil.



Hər iki dövlətin qarşılıqlı etimada əsaslanan münasibətləri dərin köklərə və müxtəlif amillərə əsaslanır.

Buna görə də Azərbaycan və Rusiya prezidentlərinin qarşılıqlı rəsmi və işgüzar səfərlərinin müsbət nəticələri özünü təkcə siyasi sferada göstərmir. Belə ki, isti siyasi münasibətlərdən qaynaqlanan əməkdaşlıq iqtisadi, hərbi, humanitar və digər sahələri əhatə edir. Yaradılmış möhkəm müqavilə-hüquqi baza iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, yanacaq-energetika, elm və təhsil, mədəniyyət, idman və digər sahələrdə əlaqələrin daha da genişləndirilməsinə şərait yaradıb.

*Ardı 6-cı səh.*

## Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayı keçirilib

Dünən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayı keçirilib.

Tədbirdən əvvəl qurultay iştirakçıları Fəxri xiyabanda ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib, xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoyublar. Şəhidlər xiyabanına gələn qurultay iştirakçıları Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəmanlarımızın xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyublar.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının (ASK) prezidenti Məmməd Musayev qurultayı açıq elan edib və qurultay Azərbaycan himninin səsləndirilməsi ilə öz işinə başlayıb.

*Ardı 4-cü səh.*

# Azərbaycanla Rusiya arasında mövcud olan dostluq münasibətləri daha da möhkəmlənir



*Əvvəli 1-ci səh.*

Həştərxanda Azərbaycan İşgüzar Mərkəzinin fəaliyyət göstərdiyini, Bakıda da Həştərxan İşgüzar Mərkəzinin inşasına başlanıldığını qeyd edən dövlət başçısı təhsil, mədəniyyət sahələrində əməkdaşlığın yaxşı səviyyəsindən məmnunluğunu ifadə etdi və turizm sahəsində əlaqələrin genişləndirilməsi üçün böyük perspektivlərin mövcud olduğunu dedi.

Prezident İlham Əliyev bir daha Azərbaycan Respublikası ilə Rusiya Federasiyasının Həştərxan vilayəti arasında əməkdaşlığın uğurla və davamlı şəkildə inkişaf edən Azərbaycan-Rusiya ikitərəfli münasibətlərinin inkişafına töhfə verdiyini bildirdi və ikitərəfli əlaqələrimizin genişləndirilməsində dövlət başçılarının qarşılıqlı səfərlərinin və müxtəlif beynəlxalq səviyyədə təmaslarının rolunu xüsusi olaraq qeyd etdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Rusiya Prezidenti Vladimir Putinin Xəzəryanı ölkələrlə əməkdaşlığın genişləndirilməsi barədə tapşırıqlar verdiyini qeyd edərək ilk səfərini Azərbaycana həyata keçirdiyini məmnunluqla vurğuladı.

O, nümayəndə heyətinə göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirərək Bakıdakı inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını dedi. Həştərxan vilayəti ilə Azərbaycan arasında əməkdaşlığın müxtəlif sahələrdə uğurla inkişaf etdiyini deyən Sergey Morozov bunun Rusiya-Azərbaycan ikitərəfli münasibətlərinin inkişafı işinə xidmət etdiyini bildirdi. Sonra Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozov Həştərxan vilayəti ilə Azərbaycan Respublikası arasında səmərəli əməkdaşlığın inkişafına və dostluq münasibətlərinin möhkəmlənməsinə verdiyi böyük töhfəyə görə Prezident İlham Əliyevə "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordenini təqdim etdi.

Sonda xatirə şəkli çəkdirildi.

## "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə qoşulmaq haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası 2010-cu il 24 sentyabr tarixində Nyu York şəhərində imzalanmış "Dənizə çıxışı olmayan inkişaf etməkdə olan ölkələr üçün Beynəlxalq Beyin Mərkəzinin yaradılması üzrə" Çoxtərəfli Sazişə Azərbaycan Respublikasının müvafiq bəyanatı ilə (bəyanatın mətni əlavə olunur) qoşulsun.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

## "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1335-VKQD nömrəli Konstitusiya Qanununun tətbiqi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1335-VKQD nömrəli Konstitusiya Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasına dair təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin konstitusiya qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Konstitusiya Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2018-ci il*

## Aztəminatlı ailələrə birdəfəlik yardım verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2018-ci il 28 dekabr tarixinə ünvanlı dövlət sosial yardımı alan ailələrin hər birinə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı münasibətilə 100 (yüz) manat məbləğində birdəfəlik yardım ödənilsin.

2. Birdəfəlik yardımın maliyyələşdirilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində ünvanlı dövlət sosial yardımı və sosial müavinətlər üçün nəzərdə tutulmuş vəsaitin xərclənməmiş qalıq hissəsindən 5,0 (beş) milyon manat ayrılsın.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 2-ci hissəsindən irəli gələn məsələləri həll etsin.

4. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi birdəfəlik yardımın ünvanlı dövlət sosial yardımı alan ailələrin hesablarına köçürülməsini təmin etsin.

5. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2018-ci il*

## "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

Maddə 1. "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 115; 2004, № 9, maddə 665; 2006, № 3, maddə 207, № 11, maddə 909; 2007, № 10, maddə 928; 2009, № 10, maddə 761, № 12, maddə 944; 2011, № 6, maddə 459, № 8, maddə 749; 2014, № 7, maddə 757; 2016, № 4, maddə 655; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1233-VKQD nömrəli Konstitusiya Qanunu) 16.1-ci maddəsində "2025" rəqəmləri "2230" rəqəmləri ilə əvəz edilsin.

Maddə 2. Bu konstitusiya qanununun 1-ci maddəsində nəzərdə tutulmuş dəyişiklik 2018-ci il mayın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

## Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qəbələ şəhərinin su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması işlərinin başa çatdırılması məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 22 yanvar tarixli 3593 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.48.11-ci yarımbəndində göstərilmiş məbləğin 23,0 (iyirmi üç) milyon manatı "Azərsu" Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2018-ci il*

## Baş nazir Novruz Məmmədovun sədrliyi ilə Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib

Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədovun sədrliyi ilə Azərbaycan Respublikası Dövlət Neft Fondunun Müşahidə Şurasının iclası keçirilib.



Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasın gündəliyinə əsasən Dövlət Neft Fondunun 2019-cu il üçün büdcə layihəsi, investisiya siyasəti, valyuta vəsaitinin idarə edilməsi və digər məsələlər müzakirə olunub.

Dövlət Neft Fondu tərəfindən fondun 2019-cu il üçün büdcə layihəsi barədə təqdim edilən məlumata əsasən 2019-cu ildə Dövlət Neft Fondunun büdcəsinin baza göstəricisi olan 1 barel neftin ortaillik ixrac qiyməti növbəti il üçün dövlət büdcəsi ilə eyni - 60,0 ABŞ dolları səviyyəsində götürülüb. Bu göstəriciyə uyğun olaraq fondun 2019-cu il üzrə büdcə gəlirlərinin ümumi həcminin 15 450,1 milyon manat, büdcə xərclərinin 11 595,2 milyon manat təşkil etməsi və fondun büdcəsində 3 854,9 milyon manat profisitin yaranması proqnozlaşdırılır.

Dövlət Neft Fondunun 2019-cu il üçün investisiya siyasətinin müzakirəsi zamanı qeyd edilib ki, Neft Fondunun növbəti il üzrə investisiya portfelində xarici valyutalarda ifadə olunan aktivlərin çəkisi ABŞ dollarında 50 faiz, avroda 35 faiz, İngilis funt sterlinqində 5 faiz, digər valyutalarda isə 10 faiz səviyyəsində olması proqnozlaşdırılır.

Xərclərin strukturunda məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə əlaqədar bəzi tədbirlərin maliyyələşdirilməsi ilə bağlı xərclər 200,0 milyon manat, Neft Fondundan dövlət büdcəsinə transfertin yuxarı həddi 11 364,3 milyon manat, fondun idarə edilməsi ilə bağlı xərclər 30,9 milyon manat məbləğində olması proqnozlaşdırılır.

Eyni zamanda, iclasda fondun 2019-cu ilin büdcə layihəsinə dair Azərbaycan Respublikası Hesablama Palatasının rəyi müzakirə edilərək irəli sürülən nəticə və tövsiyələrin baxılmasına dair tapşırıqlar verilib. Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında qaydalarda dəyişikliklərin edilməsi barədə təklifləri müzakirə olunub və şuranın üzvləri tərəfindən irəli sürülən təklif və tövsiyələrin nəzərə alındığı bildirilib.

Müzakirələrin nəticəsi olaraq Müşahidə Şurası tərəfindən Dövlət Neft Fondunun 2019-cu il büdcəsinin gəlirlərinin 15 450,1 milyon manat, xərclərinin 11 595,2 milyon manat, o cümlədən fondun idarə edilməsi ilə bağlı xərclərin 30,9 milyon manat məbləğində müəyyən edilməsi məqsədəuyğun sayılıb və müvafiq olaraq Dövlət Neft Fondunun 2019-cu il büdcə layihəsi, o cümlədən investisiya siyasəti daxil olmaqla, Neft Fondunun vəsaitinin istifadə edilməsinin əsas istiqamətləri və Neft Fondunun idarə edilməsi ilə bağlı illik xərclər smetasının layihələri məqbul hesab olunaraq təsdiq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə edilib.

Həmçinin Dövlət Neft Fondunun valyuta vəsaitinin idarə edilməsi qaydalarının təkmilləşdirilməsi məqsədilə "Azərbaycan Respublikası Dövlət Neft Fondunun valyuta vəsaitinin saxlanılması, yerləşdirilməsi və idarə edilməsi haqqında Qaydalar"ında təklif edilən dəyişikliklər məqbul sayılıb və bu dəyişikliklərin təsdiq edilməsi üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması tövsiyə olunub.

## Azərbaycan-BMT tərəfdaşlıq əlaqələrinə dair fikir mübadiləsi aparılıb

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycan Respublikasında rezident əlaqələndiricisi Qulam İshaqzai ilə görüşüb.



AZƏRTAC xəbər verir ki, BMT-nin ölkəmizdəki rezident əlaqələndiricisi Qulam İshaqzai səmimi qəbula görə təşəkkürünü bildirərək BMT-nin inkişaf sistemində aparılan islahatlar haqqında ətraflı məlumat verib və bu xüsusda, 3 istiqamətdə - katiblik, sülhməramlılıq departamenti və inkişaf sistemində islahatların həyata keçirildiyini qeyd edib. Q.İshaqzai BMT Baş Assambleyasının 2018-ci ilin may ayında yekdilliklə qəbul etdiyi qətnaməyə əsaslanan Birləşmiş Millətlər Təşkilatının inkişaf sistemində aparılan islahatlarının, ilk növbədə, effektivliyin artırılmasına yönəldiyini söyləyib və islahatlar prosesinin dəstəklənməsi üçün xüsusi Etimad Fondunun yaradıldığını vurğulayıb.

Tərəflər BMT və Azərbaycan arasında sonuncu dəfə 2016-cı ildə imzalanmış Tərəfdaşlıq Çərçivə sənədinin yenilənməsi üzrə qarşıdan gələn il ərzində danışıqların başlanması üzrə fikir mübadiləsi aparıblar.

Ölkəmizin BMT ilə faydalı və hərtərəfli əməkdaşlıq qurduğunu deyən nazir Elmar Məmmədyarov ölkəmizin BMT çərçivəsində siyasi dialoq və praktiki əməkdaşlıqda fəal iştirak etdiyini bildirib.

Görüşdə, həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Həştərxan vilayətinin nümayəndə heyəti ulu öndər Heydər Əliyevin məzarını ziyarət edib

Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini icra edən Sergey Morozovun başçılıq etdiyi nümayəndə heyəti dekabrın 19-da Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil dövlətimizin memarı və qurucusu Heydər Əliyevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyub.

AZƏRTAC xəbər verir ki, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi yad olunub, məzarı üzərinə tər güllər düzülüb.



Daha sonra qonaqlar dünya şöhrətli müğənni, SSRİ xalq artisti Müslüm Maqomayevin xatirəsini anıb, məzarı önünə gül dəstələri qoyublar.

## Dövlət Turizm Agentliyi ilə Həştərxan vilayəti arasında əməkdaşlıq haqqında razılaşma əldə olunub

Dekabrın 19-da Dövlət Turizm Agentliyi ilə Rusiyanın Həştərxan vilayəti arasında əməkdaşlıq haqqında sənəd imzalanıb.

Agentlikdən AZƏRTAC-a bildirilib ki, imzalanma Rusiya Federasiyasının Həştərxan vilayətinin qubernatoru vəzifəsini müvəqqəti icra edən Sergey Morozovla Dövlət Turizm Agentliyinin sədri Fuad Nağıyev arasında görüş çərçivəsində reallaşıb.

Tərəflər turizm sahəsində uzunmüddətli və konstruktiv əlaqələrin inkişaf etdirilməsi məqsədilə bir sıra məsələlər üzrə razılıq əldə ediblər.

Görüşdə Azərbaycan Respublikası ilə Həştərxan vilayətinin turizm məhsullarının qarşılıqlı təşviqi və turist mübadiləsinin daha da artırılması üçün Həştərxan və Bakı şəhərləri arasında uçuşların bərpası, Xəzər dənizi kruiz xətti üzrə turizm layihəsinin həyata keçirilməsinin təşviq edilməsi məsələləri müzakirə olunub.

Tərəflər arasında birgə turizm proqramları və layihələrində qarşılıqlı iştirak etmək, tur operatorları arasında birbaşa əməkdaşlığı inkişaf etdirmək üzrə razılaşma da əldə edilib.

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 689; 2007, № 12, maddə 1218; 2009, № 12, maddə 948; 2011, № 3, maddə 169; 2015, № 1, maddə 10, № 2, maddə 95; 2016, № 10, maddə 1604; 2017, № 3, maddə 338, № 5, maddə 693) aşağıdakı məzmunda 43-1-ci maddə əlavə edilsin:

**"Maddə 43-1. Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların alınması**

43-1.1. Aviasiya təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə daşıyıcılar Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinlərinə dair bu qanunun 43-1.4-cü maddəsində nəzərdə tutulmuş məlumatları biletin bronlaşdırıldığı (satıldığı) vaxtdan dərhal sonra və hər bir halda hava gəmisinə minik başlayanadək elektron formada müvafiq icra hakimiyyəti orqanına verməlidirlər.

43-1.2. Daşıyıcılar Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisi ekipajının hər bir üzvünün vəzifəsi və ona dair bu qanunun 43-1.4-cü maddəsində nəzərdə tutulmuş məlumatları hava gəmisinin yola düşməsinə ən geci 24 saat qalmış elektron formada müvafiq icra hakimiyyəti orqanına verməlidirlər. Hava gəmisinin ekipajının tərkibi dəyişdikdə həmin məlumatlar dəyişiklik edildikdən dərhal sonra, lakin hər bir halda hava gəmisi yola düşənədək verilməlidir.

43-1.3. Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə bu qanunun 43-1.4-cü maddəsində nəzərdə tutulmuş məlumatlar, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə başqa qayda müəyyən edildiyi hallar istisna olmaqla, bu qanun və "Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada alınır, toplanır və istifadə edilir.

43-1.4. Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikası ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə verilməli olan məlumatların siyahısı, məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

# "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1379-VQD nömrəli Qanununun tətbiqi və "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1379-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə verilməli olan məlumatların siyahısını, məlumatların daşıyıcılar tərəfindən verilməsi, habelə həmin məlumatların qəbul edilməsi, saxlanması və digər dövlət orqanları (qurumları) ilə mübadilə edilməsi qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

1.3. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. "Aviasiya haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 30 avqust tarixli 284 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 716; 2009, № 2, maddə 67; 2014, № 9, maddə 1027; 2015, № 2, maddə 129; 2017, № 3, maddə 353, № 6, maddə 1113, № 8, maddə 1521; 2018, № 9, maddə 1840) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 2.2-ci bənddə "34.3-cü maddəsində" sözləri "34.3-cü və 43-1.4-cü maddələrində" sözləri ilə əvəz edilsin;

2.2. 2.17-ci bəndin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 2.18-ci bənd əlavə edilsin:

"2.18. həmin qanunun 43-1.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti həyata keçirir.".

3. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti Azərbaycan Respublikasının ərazisinə enəcək və Azərbaycan Respublikasının ərazisini tərk edəcək hava gəmisinin sərnişinləri və ekipajı barədə məlumatların toplanması, saxlanması və yenilənməsini təmin edən informasiya sisteminin yaradılmasını və həmin məlumatların Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinə, Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinə və Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyinə real vaxt rejimində verilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Aviasiya haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 5-ci bəndini rəhbər tutaraq, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununu "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının 2017-ci il 1 dekabr tarixli 914-VQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

"Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 19; 2001, № 12, maddə 736; 2004, № 2, maddə 57, № 3, maddə 133, № 8, maddə 599, № 10, maddə 787; 2005, № 8, maddə 686; 2006, № 12, maddə 1005; 2007, № 4, maddə 322; 2009, № 7, maddə 517, № 11, maddə 878; 2010, № 5, maddə 375; 2011, № 2, maddə 71, № 6, maddə 478; 2013, № 11, maddə 1272; 2017, № 11, maddə 1977; 2018, № 2, maddə 148) 20-ci maddəsinin I hissəsinin ikinci cümləsi üçüncü cümlə hesab edilsin və aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Ölmüş zərər çəkmiş şəxsin hüquqi varisi qismində tanınmış vəkil tərəfindən göstərilən hüquqi yardımın ödənilməsi də, məhkəmə tərəfindən məhkumun üzərinə qoyulduğu hallar istisna olmaqla Azərbaycan Respublikasının dövlət büdcəsi vəsaiti hesabına təmin edilir."

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1343-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 27 noyabr tarixli 1343-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq, "Feldyeger rabitəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1215-VQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (I kitab), maddə 202, № 3, maddələr 397, 403, 429, № 4, maddələr 631, 647, 654, № 5, maddələr 835, 846, № 6, maddələr 997, 1010, № 7, maddələr 1247, 1249, № 10, maddə 1608, № 11, maddələr 1769, 1774, 1781, 1783, 1786, 1788, № 12, maddələr 1984, 2000, 2009, 2024, 2049; 2017, № 1, maddə 21, № 2, maddələr 139, 147, 152, 162, № 3, maddələr 331, 344, № 5, maddələr 698, 701, 734, 749, 754, № 6, maddələr 1020, 1033, 1036, № 7, maddələr 1273, 1296, 1297, 1299, № 11, maddələr 1964, 1966, 1969, 1979, № 12 (I kitab), maddə 2217; 2018, № 1, maddə 19, № 2, maddələr 160, 162, 163, № 3, maddələr 383, 401, 404, № 4, maddə 646, № 5, maddələr 857, 860, 862, 876, 883, № 6, maddələr 1153, 1188, № 7 (I kitab), maddələr 1435, 1437, 1438; Azərbaycan Respublikasının 2018-ci il 1 oktyabr tarixli 1251-VQD nömrəli Qanunu) 92.3-cü maddəsinin üçüncü cümləsinə "göndərişlər" sözündən sonra "açıla və ya" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 noyabr 2018-ci il*

# "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Konstitusiya Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq **qərara alır:**

"Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 69; 2016, № 10, maddə 1600; 2018, № 7, I kitab, maddə 1396) aşağıdakı məzmunda 5.4-cü maddə əlavə edilsin:

"5.4. Ələt azad iqtisadi zonasının ərazisində "Ələt azad iqtisadi zonası haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş hallarda bu Konstitusiya Qanunundan fərqli hüquqi tənzimləmə tətbiq edilir və həmin zonanın fəaliyyəti ilə bağlı qəbul edilmiş aktlar azad zona daxilində məcburi hüquqi qüvvəyə malikdir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Çili Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Çili Respublikası Hökuməti arasında diplomatik və xidməti/rəsmi pasport sahiblərinin viza tələbindən azad edilməsi haqqında" 2018-ci il sentyabrın 13-də Santyaqo şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# "Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasportlara malik olan şəxslərin viza tələbindən azad edilməsi haqqında" Sazişin təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

"Azərbaycan Respublikası Hökuməti ilə Monqolustan Hökuməti arasında diplomatik, xidməti və rəsmi pasportlara malik olan şəxslərin viza tələbindən azad edilməsi haqqında" 2018-ci il sentyabrın 27-də Nyu-York şəhərində imzalanmış Saziş təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# "Tranzit və Nəqliyyat üzrə Əməkdaşlıq Sazişinin (Lapis Lazuli Marşrutu Sazişi)" təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2017-ci il noyabrın 15-də Aşqabad şəhərində imzalanmış "Tranzit və Nəqliyyat üzrə Əməkdaşlıq Sazişi (Lapis Lazuli Marşrutu Sazişi)" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 27 noyabr 2018-ci il*

# Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8, (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2, (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, № 12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421) aşağıdakı dəyişikliklər edilsin:

1. 197.1.8-ci maddənin sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilsin və aşağıdakı məzmunda 197.1.9-cu maddə əlavə edilsin:

"197.1.9. Azərbaycan Respublikası ərazisindən kənarda istintaqdan gizlənən təqsirləndirilən şəxsin tutularaq cinayət prosesini həyata keçirən orqana gətirilməsi ilə əlaqədar çəkilmiş xərclərin məbləği.".

2. 198.1-ci maddədə "197.1.8-ci" sözləri "197.1.9-cu" sözləri ilə əvəz edilsin və "çəkmiş" sözündən sonra "dövlət orqanının," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2018-ci il*

# "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1381-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 7 dekabr tarixli 1381-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1371-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2018-ci il 30 noyabr tarixli 1371-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin qanunun tətbiqini təmin etmək məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların "Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 18 dekabr 2018-ci il*

# Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayı keçirilib











*Əvvəli 1-ci səh.*

İqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qurultay iştirakçılarına təbrik məktubunu oxuyub.

Sonra çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev qeyd edib ki, iqtisadiyyatın aparıcı qüvvəsi olan sahibkarlığın inkişafının dəstəklənməsi Azərbaycan Respublikası Prezidentinin daim diqqətindədir və ölkəmizdə qeyri-neft sektoru üzrə istehsalın və ixracın artırılması, sahibkarlığın inkişafı, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, dövlət-sahibkar münasibətlərinin inkişafı, biznesə yeni dəstək mexanizmlərinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Qeyd olunub ki, sahibkarlığa dövlət dəstəyi sisteminin tərkib hissəsi kimi sahibkarların investisiya layihələrinin güzəştli şərtlərlə kreditləşdirilməsi, sənaye parkları və məhəllələrinin, aqroparkların, biznes-inkubatorların yaradılması, ixrac missiyalarının təşkili və digər tədbirlər ölkəmizdə sahibkarlığın davamlı inkişafının təmin edilməsində və özəl sektorun iqtisadiyyatda xüsusi çəkisinin artmasında mühüm rol oynayır. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində özəl bölmənin payı artaraq ÜDM-də 84%-ə yaxın, məşğulluqda isə 76% təşkil edir.

Görülmüş tədbirlər beynəlxalq hesabatlarda da öz müsbət əksini tapır. Dünya Bankının "Doing Business 2019" hesabatında Azərbaycan öz mövqeyini 32 pillə yaxşılaşdıraraq 190 ölkə arasında 25-ci yerdə qərarlaşıb, dünyanın islahatçı 10 ölkəsi siyahısına daxil edilib və ən çox islahat aparan ölkə elan olunub.

Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev rəhbərlik etdiyi qurumun sosial və iqtisadi məsələlər üzrə üçtərəfli komissiya çərçivəsində Azərbaycan Sahibkarlar Konfederasiyası ilə əməkdaşlığı barədə məlumat verib. Bildirilib ki, şəffaf biznes və sağlam rəqabət mühitində sahibkarlıq fəaliyyətinin genişlənməsinə əlverişli şərait yaradılması Azərbaycanın dinamik və uzunmüddətli inkişafı məqsədilə aparılan uğurlu siyasətin əsas istiqamətlərindəndir. Bu siyasət milli iqtisadiyyatda, eyni zamanda insan kapitalının inkişafında, yeni iş yerlərinin açılmasında, əmək bazarının inkişafında, məşğulluq səviyyəsinin yüksəldilməsində özəl sektorun rolunun əhəmiyyətli şəkildə artmasına səbəb olub.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Səttar Möhbalıyev rəhbərlik etdiyi təşkilatla Azərbaycan Sahibkarlar Konfederasiyası arasında həyata keçirilən uğurlu əməkdaşlıqdan bəhs edib, sahibkarlıq subyektlərində işçilər üçün əlverişli və təhlükəsiz əmək şəraitinin yaradılmasının əhəmiyyətini, sosial məsuliyyətin vacibliyini, sahibkarların sosial məsələlərin həllində rolunun vacibliyini vurğulayıb.

Beynəlxalq Maliyyə Korporasiyasının ölkə üzrə direktoru Aliyə Əzimova təşkilatın qeyri-neft sektorunun inkişafına və sahibkarlığın dəstəklənməsinə göstərdiyi investisiya və məsləhət xidmətləri, bu istiqamətdə aidiyyəti qurumlarla həyata keçirilən əməkdaşlıq tədbirləri barədə məlumat verib.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə dövlət başçısının rəhbərliyi ilə son dövrlərdə ölkəmizdə sahibkarlıq sahəsində həyata keçirilən effektli islahatların və qəbul edilən qanunvericilik aktlarının sahibkarlığın inkişafındakı önəmli rolunu diqqətə çatdırıb, özəl bölmənin və biznes mühitinin daha da yaxşılaşdırılması sahəsində həyata keçirilən tədbirlər barədə fikirlərini bölüşüb.

Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli sahibkarlığın inkişafı ilə bağlı qəbul edilən qərarların iqtisadiyyatın davamlı inkişafının təmin olunması baxımından xüsusi əhəmiyyət daşıdığını və kiçik və orta sahibkarlığın inkişafı üçün yeni imkanlar açdığını vurğulayıb.

Sənayeçilər və Sahibkarların Beynəlxalq Konqresi Şurasının sədri, Moldova Sənayeçilər və Sahibkarlar Milli Konqresinin prezidenti Vasili Tarlev Azərbaycanda iqtisadi sahədə əldə olunmuş nailiyyətləri vurğulayaraq, Moldova sahibkarlarının azərbaycanlı sahibkarlarla əməkdaşlığın genişləndirilməsində maraqlı olduqlarını qeyd edib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Azərbaycanda son illər ərzində aparılan iqtisadi islahatlar barədə məlumat verib. Bildirilib ki, ölkəmizdə yaradılmış əlverişli biznes və investisiya mühiti sahibkarlığın genişləndirilməsi və inklüziv əmək bazarının inkişafı üçün yeni imkanlar yaradır.

Qurultayda həmçinin Türkiyə-Azərbaycan Biznes Şurasının (DEİK) sədri Selçuk Akat, Gürcüstan İşəgötürənlər Assosiasiyasının prezidenti Elquca Meladze, Beynəlxalq Sənayeçilər və Sahibkarlar Konqresinin (MKPP) vitse-prezidenti Vyaçeslav Pşeniçnikov çıxış edərək qurultayın işinə uğurlar arzulayıblar.

Sonra Azərbaycan Sahibkarlar Konfederasiyasının prezidenti Məmməd Musayevin hesabat çıxışı dinlənilib. Qeyd edilib ki, Azərbaycan Sahibkarlar Konfederasiyası ölkədə sahibkarlıq fəaliyyətinin dəstəklənməsinə və milli iqtisadiyyatın inkişafına istiqamətlənən bütün qərar və proqramların icrasında fəal iştirak edir. Hazırda konfederasiyanın tərkibinə 6000-dən artıq sahibkarlıq subyekti, o cümlədən 70-ə qədər iqtisadi və sosialyönümlü assosiasiya, holdinq, birlik, ittifaq və qeyri-hökumət təşkilatı, iri şirkətlər, banklar, sığorta təşkilatları və qrupları daxildir. Məmməd Musayev konfederasiyanın əvvəlki qurultaydan ötən müddətdə gördüyü işlər barədə qurultay iştirakçılarına məlumat verib.

Bundan sonra ASK-ın Nəzarət-təftiş komissiyasının hesabatı dinlənilib, idarə heyətinin və rəyasət heyətinin yeni tərkibi formalaşıb, ASK-ın prezidenti və vitse-prezidentləri, nəzarət-təftiş komissiyasının sədri seçilib. Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Nizamnaməsinə təklif olunan əlavə və dəyişikliklər qəbul edilib ki, bu da konfederasiyanın idarə olunmasının təkmilləşdirilməsinə, idarəetmədə operativliyin gücləndirilməsinə xidmət edir.

Açıq səsvermə zamanı qurultay nümayəndələrinin yekdil qərarı ilə Məmməd Musayev yenidən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti seçilib.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının iştirakçıları adından dövlət Prezidenti cənab İlham Əliyevə müraciət qəbul edilib. Müraciətdə sahibkarlar onlara göstərilən qayğıya və davamlı dəstəyə görə Azərbaycan Respublikasının Prezidentinə minnətdarlıqlarını bildirib və ölkə başçısı tərəfindən həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq ölkəmizin davamlı inkişafı, dayanıqlı və sağlam bazar münasibətlərinin formalaşdırılması istiqamətində konfederasiyanın fəaliyyətini səylə davam etdirəcəyini vurğulayıblar.

***"Azərbaycan"***

## Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının nümayəndələrinin

## M Ü R A C İ Ə T İ

**Möhtərəm cənab Prezident!**

Müasir Azərbaycanın qurucusu ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş sosial-iqtisadi inkişaf strategiyasının Sizin tərəfinizdən böyük müdriklik və uzaqgörənliklə davam etdirilməsi nəticəsində ölkəmizin iqtisadi qüdrəti artır.

Dünya birliyində öz layiqli yerini tutan, dayanıqlı və davamlı iqtisadi inkişafa nail olan Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələrindən birinə çevrilmək hədəfinə doğru böyük inamla irəliləyir, ötən hər ay, hər il bütün sahələrdə əldə olunan uğurlarla tarixə düşür. Reallaşdırılan mühüm tədbirlər nəticəsində ölkəmizdə makroiqtisadi sabitlik qorunub saxlanılır, iqtisadiyyatın şaxələnməsi uğurla təmin olunur, özəl bölmənin inkişafı üçün daha əlverişli biznes və investisiya mühiti formalaşdırılır.

Zati-alinizin rəhbərliyi ilə aparılan genişmiqyaslı işlər nəticəsində sahibkarlar ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilmişlər. Sizin təşəbbüsünüzlə müəyyənləşdirilmiş strateji yol xəritəsinə uyğun olaraq, ölkəmizdə işgüzar mühit davamlı olaraq yaxşılaşdırılır, qanunvericilik təkmilləşdirilir, inzibati prosedurlar sadələşdirilir, sahibkarlığa dövlət dəstəyinin gücləndirilməsi və onların inzibati yükünün azaldılması üçün məqsədyönlü tədbirlər həyata keçirilir.

İnvestisiyaların və ixracın təşviqi mexanizmlərinin yaradılması, dövlət satınalmalarında yerli məhsullar üçün güzəştlərin və ölkəyə gətirilən bir sıra məhsullar üçün yeni idxal rüsumlarının müəyyən edilməsi, kənd təsərrüfatının ənənəvi sahələrinə subsidiyaların verilməsi sahibkarlıq fəaliyyətinə müsbət təsir göstərir.

Bu siyasətin davamı olaraq hər il 25 aprel tarixinin Azərbaycan Respublikasında Sahibkarlar Günü kimi qeyd edilməsi barədə sərəncamınız sahibkarlığın inkişafına ən yüksək səviyyədə göstərilən diqqət və qayğının əyani göstəricisi olmaqla, cəmiyyətdə sahibkarlığa dəstək əhvali-ruhiyyəsinin artırılmasına təkan vermişdir.

Bu il Sahibkarlar Günündə "Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti və sahibkarlarla iş sahəsində fərqlənən şəxslərin təltif edilməsi haqqında" imzaladığınız sərəncamla sahibkarlığın genişləndirilməsi ilə bağlı dövlət siyasətinin həyata keçirilməsində səmərəli fəaliyyətlərinə görə bir qrup şəxs orden və medallarla təltif olunmuşdur.

Aparılan islahatlar dünyanın aparıcı iqtisadi mərkəzləri tərəfindən də yüksək qiymətləndirilmiş, 2018-ci il oktyabrın 31-də Dünya Bankı tərəfindən yayılan "Doing Business 2019" hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunmuşdur. Yeni hesabatda Azərbaycanın mövqeyi 2017-ci illə müqayisədə 32 pillə irəliləyərək 190 ölkə arasında 25-ci yerdə qərarlaşmış, dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında lider mövqeyə yüksəlmişdir. Belə yüksək nəticənin əldə olunması biz sahibkarları çox qürurlandırır.

**Möhtərəm cənab Prezident!**

Sahibkarlara göstərdiyiniz diqqət və qayğını qurultay nümayəndələri xüsusi minnətdarlıq hissi ilə vurğulayırlar.

Məhz Sizin müdrik siyasətinizlə dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes fəaliyyətinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, regionlarda sahibkarlığın inkişafına dövlət dəstəyi mexanizmlərinin səmərəliliyinin artırılması, sahibkarların maariflləndirilməsi və onların işgüzar əlaqələrinin inkişafı istiqamətində davam etdirilən məqsədyönlü tədbirlər nəticəsində ölkə iqtisadiyyatında özəl sektorun payı 84 faizə yaxın, məşğulluqda isə 76 faiz təşkil etmişdir.

Bu gün Azərbaycanda sağlam bazar münasibətləri, azad rəqabət mühiti, özəl bölmə üçün əlverişli imkanlar formalaşdırılmışdır. Bütün bu imkanlar sayəsində Azərbaycanda sahibkarlıq həm keyfiyyət, həm də kəmiyyət baxımından inkişaf etməkdədir.

Özündə minlərlə sahibkarlıq subyektini, o cümlədən 70-ə qədər iqtisadi və sosialyönümlü assosiasiya və ittifaqı birləşdirən Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası özəl sektorda sağlam qüvvələrin birləşməsi əsasında ölkəmizin iqtisadi cəhətdən güclü dövlətə çevrilməsi, bu sahədə yüksək səmərəliliyə nail olunması, ölkə əhalisinin maddi rifah halının yaxşılaşdırılması üçün özəl sektorun inkişafı istiqamətində məqsədyönlü tədbirlərin həyata keçirilməsində fəal iştirak edir.

Bu gün Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarının təmsilçisi kimi hökumətin bu sahədə əsas sosial partnyoru olmaqla, 2001-ci ildən etibarən Azərbaycan Respublikası Nazirlər Kabineti və Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası ilə birlikdə ölkənin sosial-iqtisadi siyasəti və sosial əmək münasibətləri üzrə razılaşdırılmış mövqelərini və birgə fəaliyyətlərini müəyyən edən Baş Kollektiv Sazişin tərəflərindən biridir.

Konfederasiya Sizin rəhbərliyinizlə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasına uyğun olaraq qüdrətli Azərbaycan naminə daim ölkəmizin inkişafı, xalqımızın rifah halının yüksəldilməsi, dayanıqlı və sağlam bazar münasibətlərinin formalaşdırılması istiqamətində davamlı fəaliyyət göstərir. Sahibkarlar Konfederasiyası həmçinin ölkəmizin inkişafı naminə qəbul edilən qanunların təkmilləşdirilməsi istiqamətində təşəbbüslərlə çıxış edir, sahibkarların sosial məsuliyyətinin artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, habelə əlavə dəyər yaradan sahələrin formalaşdırılmasında fəal iştirak edir.

Biz Azərbaycan Sahibkarlar Konfederasiyası olaraq əminik ki, daim azad sahibkarlığın inkişafında və dövlət-sahibkar əməkdaşlığının əhatə dairəsinin genişləndirilməsində, möhtərəm cənab Prezident, Sizin dəstəyinizi və qayğınızı hiss edəcəyik.

**Möhtərəm cənab Prezident!**

Qurultay nümayəndələri adından Sizi əmin edirik ki, sahibkarlara göstərilən dövlət dəstəyinə cavab olaraq ölkə sahibkarları bundan sonra da iqtisadiyyatın inkişafının təmin olunması sahəsində üzərlərinə düşən vəzifələri dönmədən həyata keçirəcək, müəyyən etdiyiniz sosial-iqtisadi siyasətin həyata keçirilməsinə layiqli töhfələr verəcəklər.

Zati-alinizə möhkəm cansağlığı və müstəqil, demokratik Azərbaycanın daha da möhkəmlənməsi, xalqımızın xoşbəxt gələcəyi naminə yorulmaz fəaliyyətinizdə uğurlar arzulayırıq!

***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının nümayəndələri***

*Bakı şəhəri, 19 dekabr 2018-ci il*

# Akademik Ramiz Mehdiyevin kitabının təqdimatı olub





Azərbaycan Dövlət Pedaqoji Universitetinin (ADPU) tarix və coğrafiya fakültəsinin təşkilatçılığı ilə universitetdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin yeni işıq üzü görmüş "Qriqorian kilsəsi Səfəvilər dövlətinə qarşı casusluq aləti kimi. XVII əsr - XVIII əsrin ilk dörddəbiri" adlı kitabının təqdimatı keçirilib.

ADPU-dan AZƏRTAC-a bildirilib ki, təqdimatda universitetin rəhbərliyi, professor-müəllim heyəti, AMEA-nın Abbasqulu ağa Bakıxanov adına Tarix İnstitutunun əməkdaşları iştirak ediblər.

Tədbiri açan ADPU-nun rektoru, professor Cəfər Cəfərov bildirib ki, təqdimatı keçirilən kitab bu gün tarix elmimiz üçün çox aktual olan bir mövzuya həsr edilib. Akademik Ramiz Mehdiyev Səfəvilər dövləti ilə bağlı bir neçə kitabın müəllifidir. Böyük alimin geniş və hərtərəfli elmi tədqiqatları nəticəsində ərsəyə gətirdiyi həmin kitablar elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilib. Yeni əsərin əsas özəlliyi Ramiz Mehdiyevin həm tədqiqatçı-alim, həm də dövlət xadimi olaraq Səfəvilər dövlətinə yeni prizmadan yanaşmasıdır. Bu əsər Azərbaycan tarixşünaslığında və siyasi elmində Qriqorian kilsəsinin Səfəvilər dövlətinə qarşı kəşfiyyat və siyasi-ideoloji fəaliyyətinin geniş işıqlandırılmasına göstərilən ilk cəhddir. Çoxsaylı mötəbər elmi mənbələr əsasında yazılmış bu fundamental əsərdə problemlərin qoyuluşu və həlli tamamilə yenidir. Əsərdə Vatikan tərəfindən göndərilmiş katolik missiyasının qeyd etdiyimiz dövrdə Səfəvilərə qarşı həyata keçirdiyi ideoloji və casusluq fəaliyyətinin strategiya və taktikası, həmçinin Qriqorian kilsəsinin katolik missiyası ilə əlaqələri ardıcıl və dəqiq aydınlaşdırılır. Əsərdə erməni siyasi elitasının satqınlığı, Qriqorian kilsəsinin fitnəkar, pozucu, casusluq fəaliyyəti ifşa edilir. Konkret elmi-tarixi faktlara söykənən bu əsər sistemli fəaliyyətin uğurlu davamıdır. Əsərin rus dilində yazılması onun istifadə imkanlarının və oxucu auditoriyasının genişlənməsinə imkan verir. Bu əsər bütövlükdə tarix elmimizə böyük töhfədir.

Tədbirdə çıxış edən AMEA Tarix İnstitutunun professoru Şahin Fazil, ADPU-nun Azərbaycan tarixi kafedrasının müdiri, dosent Naibə Əhmədova, tarix üzrə fəlsəfə doktoru, dosent Dilavər Əzimli, universitetin Azərbaycan tarixi kafedrasının baş müəllimi, tarix üzrə fəlsəfə doktoru Elman Mirzəyev akademik Ramiz Mehdiyevin mötəbər elmi-tarixi mənbələr əsasında yazdığı yeni əsərin çox maraqlı və aktual mövzuya həsr olunduğunu bildiriblər. Çıxışlarda qeyd edilib ki, bu əsərdə Qriqorian kilsəsinin Səfəvilər dövlətinə qarşı apardığı pozucu kəşfiyyat və siyasi-ideoloji fəaliyyət geniş işıqlandırılır. Əsər, həmçinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin obyektiv araşdırılması üçün böyük əhəmiyyət kəsb edir.

Sonra kitabla bağlı müzakirələr aparılıb. AMEA-nın müxbir üzvü, professor Vəli Əliyev, professor Himalay Qasımov, dosent Sevinc Seyidova, dosent Elmira Süleymanova çıxış edərək bu dəyərli əsərin bütün türk xalqları üçün mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar.

# "İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər" kitabının təqdimatı

Dekabrın 19-u AMEA-nın Fəlsəfə İnstitutunda BDU-nın Politologiya və sosiologiya kafedrasının müəllimi, AMEA-nın elmlər doktoru proqramı üzrə dissertantı, siyasi elmlər üzrə fəlsəfə doktoru Günel Məliklinin "İlham Əliyevin siyasi strategiyasında milli prioritetlər" kitabının təqdimat mərasimi keçirildi.




Təqdimatda giriş nitqi ilə çıxış edən kitabın elmi redaktoru, fəlsəfə İnstitutunun direktoru, fəlsəfə üzrə elmlər doktoru, professor İlham Məmmədzadə kitab haqqında müsbət fikirlərini bildirərək bunu gənc doktorantın uğuru kimi dəyərləndirdi. İlham Məmmədzadə kitabın bir çox



elmlər doktoru tərəfindən də müsbət qiymətləndirildiyini diqqətə çatdırdı.

Günel Məlikli bildirdi ki, monoqrafiya üslubunda yazılmış kitabda Prezident İlham Əliyevin strategiyasında milli prioritetlər araşdırılır. Burada milli prioritetlərdə tarix və müasirlik məsələsi, Azərbaycanın xarici siyasət doktrinası və xarici siyasət strategiyası milli dövlət maraqlarının formalaşdırılması baxımından nəzərdən keçirilir. XX əsrdə Azərbaycanın milli dövlətçiliyə doğru keçdiyi tarixi yol və XX-XXI əsrlərdə milli mədəniyyətin formalaşmasında siyasi münasibətlərin rolu təhlil olunur, müstəqilliyə doğru aparan yolda ümummilli lider Heydər Əliyev fenomeni və milli prioritetlərin təyin edilməsində cənab Prezident İlham Əliyevin rolu araşdırılır.

Bundan başqa, kitabda Azərbaycanın gələcəyini formalaşdıran müasir siyasi strategiya nəzərdən keçirilir. 3 fəsildən ibarət olan monoqrafiya geniş oxucu kütləsi üçün nəzərdə tutulub. Monoqrafiyada seçilən konseptual yanaşma ümumelmi metodlar üzərində qurulub. Müəllif onu da diqqətə çatdırdı ki, monoqrafiyada elmi nəzəri ədəbiyyatın təhlili ilə yanaşı, ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin çıxışlarına, nitqlərinə, imzaladıqları rəsmi sənədlərə müraciət edib.

Cəmiyyətdə ağılın hər şeydən üstün olduğunu vurğulayan Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri, professor Hadi Rəcəbli müəllifin elmi fəaliyyətini müsbət dəyərləndirdi. Kitabın mahiyyətinin xarici və sosial siyasətin bəzi qolları ilə bağlı olduğunu deyən deputat bildirdi ki, cəmiyyəti idarə etmək çətin, məsuliyyətli, eyni zamanda da şərəfli bir vəzifədir: "Heydər Əliyevin əsasını qoyduğu sabit təmələ əsaslanan Prezident İlham Əliyev tərəfindən 2003-cü ildən etibarən milli inkişaf strategiyası həyata keçirilir. Bu gün dünya "inkişafın Azərbaycan modeli" barədə aydın təsəvvürlərə malikdir və qlobal miqyasda elm mərkəzləri bu modeli dərindən tədqiq edir, onu başqa ölkələrə örnək göstərir. İlham Əliyevin siyasi strategiyası milli inkişaf konsepsiyasının tərkib hissəsidir, onun uğurlu davamıdır. Əminik ki, bu strategiyanın elmi şəkildə araşdırılması prosesi bundan sonra daha geniş miqyasda həyata keçiriləcək".

Digər natiqlər də kitabın nəşrini yüksək qiymətləndirdilər.

***Fərizə ƏHMƏDOVA,***
***Ağaəli MƏMMƏDOV (foto),***
***"Azərbaycan"***

# Professor Məzahir Abasovun 100 illik yubileyi qeyd olunub



Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.A.Bakıxanov adına Tarix İnstitutunda 1941-1945-ci illər müharibəsinin qəhrəmanı, professor Məzahir Abasovun 100 illik yubileyinə həsr edilmiş tədbir keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Tarix İnstitutunun direktoru, akademik Yaqub Mahmudov professor M.Abasovun mənalı ömür yolundan, onun 1941-1945-ci illər müharibəsində faşistlərə qarşı döyüşlərdə göstərdiyi qəhrəmanlıqlarından, eləcə də tarix elminə verdiyi töhfələrdən danışıb.

Qeyd olunub ki, M.Abasov 1941-1945-ci illər müharibəsi zamanı Ukraynanın Sevastopol və Odessa şəhərlərinin, Qafqazın hava hücumlarından müdafiəsində fəal iştirak edib. Onu ağır yaralı olanda Azərbaycanın görkəmli həkim və alimləri Əziz Əliyev və Mustafa Topçubaşov müalicə ediblər.

Y.Mahmudov professor M.Abasovun 1941-1945-ci illər müharibəsi tarixinin ilk tədqiqatçılarından biri olduğunu vurğulayıb.

Tədbirdə M.Abasovun həyat və fəaliyyətindən bəhs edən "İgid şahin" sənədli filmi nümayiş olunub.

Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev M.Abasovun elmi yaradıcılığının əhəmiyyətindən bəhs edib, onun vətənpərvər bir alim olduğunu söyləyib.

Milli Məclisin deputatı Eldar Quliyev, professor Musa Bağırov, Tarix İnstitutunun elmi işlər üzrə direktor müavini Cəbi Bəhramov, yazıçı Georgi Zapletin və digər çıxış edənlər də M.Abasovun səmərəli fəaliyyətindən söhbət açıblar.

Bildirilib ki, M.Abasov tarixşünaslığımızda ilk dəfə 1941-1945-ci illər müharibəsi zamanı Bakının SSRİ-nin əsas yanacaq mənbəyi olduğunu sübut edib. O, 1998-ci ildə ulu öndər Heydər Əliyevin fərmanı ilə Azərbaycanda tarix elminin inkişafındakı xidmətlərinə və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsində fəal iştirakına görə "Şöhrət" ordeni ilə təltif olunub.

Sonda M.Abasovun oğlu Əlövsət Abasov tədbirin təşkilatçılarına və iştirakçılarına təşəkkürünü bildirib.

# Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransa hazırlıqla bağlı iclas keçirilib

Gələn il aprelin 16-18-də Bakıda keçiriləcək Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfransa hazırlıqla bağlı dekabrın 19-da Dövlət Gömrük Komitəsində (DGK) iclas olub.

DGK-nın mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda bu qurumun sədr müavini, gömrük xidməti general-leytenantı Əsgər Abdullayev, Nazirlər Kabinetinin təhlükəsizlik və müdafiə məsələləri şöbəsinin müdiri Qulu İmanquliyev, təhsil nazirinin müavini Firudin Qurbanov, gənclər və idman nazirinin müavini İntiqam Babayev, Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin rəisi, general-mayor Həzi Aslanov, Xarici İşlər, Maliyyə, Mədəniyyət, Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar, İqtisadiyyat nazirliklərinin, Dövlət Təhlükəsizliyi, Dövlət Sərhəd və Dövlət Miqrasiya xidmətlərinin, "Azərbaycan Hava Yolları" QSC-nin və ABŞ Ədliyyə Nazirliyinin nümayəndələri iştirak ediblər.

Ə.Abdullayev konfransın keçirilməsi ilə əlaqədar Prezident İlham Əliyevin sərəncamına əsasən Təşkilat Komitəsinin yaradıldığını və Nazirlər Kabineti tərəfindən tədbirlər planının hazırlandığını bildirib. Qeyd edilib ki, iclasın məqsədi tədbirlər planında nəzərdə tutulan məsələlərin müzakirə olunmasıdır.

ABŞ-ın Ədliyyə Nazirliyinin nəzdində Narkotiklərlə Mübarizə Administrasiyasının Orta Asiya üzrə regional direktoru Vilyam Varen konfransın əhəmiyyətindən danışaraq bu iclası tədbirin yüksək səviyyədə təşkil edilməsi istiqamətində uğurlu addım kimi qiymətləndirib.

İclasda konfransın loqosunun hazırlanması, iştirakçı ölkələrin və nümayəndələrin siyahısının tərtib edilməsi, müzakirə olunacaq mövzular və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

# Müdafiə Nazirliyinin ilin yekunlarına və 2019-cu ildə qarşıda duran vəzifələrə dair geniş kollegiya iclası

Dekabrın 19-da Müdafiə Nazirliyində general-polkovnik Zakir Həsənovun rəhbərliyi və kollegiya üzvlərinin iştirakı ilə builki tədris ilində qoşunların hazırlığı üzrə yekunlara və 2019-cu ildə qarşıda duran vəzifələrə dair geniş tərkibdə iclas keçirilib.





Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasda hesabat dövründə ordu quruculuğu sahəsində görülən işlər və əsas istiqamətlər üzrə yerinə yetirilən tapşırıqlarla bağlı məruzələr dinlənilib, son dövrlərdə həyata keçirilən islahatlar, qoşunların döyüş hazırlığının vəziyyəti, xidməti və digər məsələlər müzakirə olunub.

Müdafiə naziri 2018-ci ildə xidməti döyüş hazırlığının yekunları və növbəti tədris ilində qarşıda duran vəzifələr haqqında geniş məruzə ilə çıxış edib.

Prezident İlham Əliyevin Azərbaycan Ordusuna verdiyi qiyməti, göstərdiyi diqqət və qayğını xüsusi qeyd edən müdafiə naziri Ali Baş Komandanın rəhbərliyi ilə son illər ərzində qazanılan nailiyyətlərdən danışıb. General-polkovnik Z.Həsənov cari ildə görülən tədbirlərin təhlilini apararaq döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyət, müdafiə sistemi və onun hərtərəfli təminatı məsələlərini diqqətə çatdırıb. Nazir qoşunların döyüş qabiliyyətinin artırılması məqsədilə 2019-cu tədris ilində qarşıda duran əsas vəzifələrin icrası ilə əlaqədar komandir-rəis heyətinə tapşırıqlar verib.

Müdafiə nazirinin əmrinə əsasən, 2018-ci tədris ilində döyüş hazırlığının yekunlarına görə xidmətdə fərqlənən hərbi qulluqçular təltif edilib, qiymətli hədiyyələrlə mükafatlandırılıb və bir qrup zabitə "polkovnik" hərbi rütbələri verilib.

Sonda kollegiya iclasının qərar layihəsi müzakirə edilərək qəbul olunub.

# Azərbaycan ilə ABŞ arasında gömrük sahəsində münasibətlər uğurla inkişaf edir

Dekabrın 19-da Dövlət Gömrük Komitəsinin (DGK) sədri, gömrük xidməti general-leytenantı Səfər Mehdiyev ABŞ-ın Ədliyyə Nazirliyi nəzdində Narkotiklərlə Mübarizə Administrasiyasının Orta Asiya üzrə regional direktoru Vilyam Varenin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

DGK-nın mətbuat və ictimaiyyətlə əlaqələr idarəsindən AZƏRTAC-a bildirilib ki, komitə sədri Azərbaycan ilə ABŞ arasında mövcud olan strateji əməkdaşlıq və dostluq münasibətlərinin gömrük sahəsində də uğurla inkişaf etdiyini diqqətə çatdırıb. S.Mehdiyev Prezident İlham Əliyev tərəfindən bütün sahələrdə olduğu kimi, gömrük sistemində də ciddi islahatların həyata keçirildiyini bildirib. O, bu islahatlar nəticəsində daha çevik və dinamik gömrük xidmətinin formalaşdığını diqqətə çatdırıb. Bildirilib ki, Azərbaycanın tranzit potensialının artırılması, beynəlxalq ticarətin sürətli, təhlükəsiz və asan həyata keçirilməsi məqsədilə qarşıya qoyulan hədəflərin reallaşdırılması üçün gömrük sisteminin fəlsəfəsi nəzarətdən xidmətə doğru dəyişdirilib.

Şəffaflığın təmin edilməsi, gömrük prosedurlarının sadələşdirilməsi məqsədilə həyata keçirilən tədbirlərdən danışan komitə sədri görülən işlərin nəticəsi kimi, bu ilin müvafiq dövründə narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizə sahəsində də ciddi nailiyyətlərin qazanıldığını vurğulayıb. Diqqətə çatdırılıb ki, bu il Azərbaycanın gömrük orqanları 1 ton 200 kiloqrama yaxın narkotik vasitəni dövriyyədən çıxarıb. Bu istiqamətdə bundan sonra da qətiyyətli addımlar atılacaq.

S.Mehdiyev ümidvar olduğunu bildirib ki, 2019-cu il aprelin 16-18-də Bakıda keçiriləcək Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans bu sahədə beynəlxalq müstəvidə görülən işlərə mühüm töhfə verəcək.

V.Varen narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə mübarizə istiqamətində Azərbaycanın gömrük orqanları tərəfindən həyata keçirilən tədbirləri, əldə edilən nailiyyətləri yüksək qiymətləndirib. Vurğulanıb ki, Bakıda keçiriləcək Narkotiklərlə Mübarizə üzrə 36-cı Beynəlxalq Konfrans bu sahədə beynəlxalq əməkdaşlığın güclənməsinə, mübarizə tədbirlərinin səmərəliliyinin artırılmasına şərait yaradacaq.

## Dövlət başçısına minnətdarlıq

# Ölümüylə ucalanlar

"Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyat zamanı xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" dövlət başçısının 2018-ci il 19 aprel tarixli fərmanının icrası ilə əlaqədar şəhidlərin vərəsələrinə 11 min manat məbləğində birdəfəlik ödəmə verilməsi prosesi Quba rayonunda da davam etdirilir.



Belə ailə başçılarından biri də Vladimirovka kənd sakini Zöhrab Qaraxanovdur. Onun oğlu Mübariz yüzlərlə həmyaşıdı kimi 1992-ci ildə könüllü olaraq cəbhəyə getmişdir. Atası həmin günləri belə xatırlayır:

-Evə gələndə Mübarizin hazırlaşdığını gördüm. Üzümə baxdı və sakitcə, ata, döyüşə gedirəm, dedi. Bir neçə gün öncə söhbətimiz olmuşdu və mənə əllərini qoynuna qoyub sakit otura bilmədiyini demişdi. Başımla razılığımı bildirmişdim. Bilirdim ki, Mübariz kimiləri vətənin ağır günündə qaçıb gizlənə bilməz.

Mübariz Qaraxanov 1962-ci ildə Vladimirovka kəndində anadan olub. 1977-ci ildə kənd orta məktəbinin 8-ci sinfini bitirdikdən sonra Qubadakı 103 nömrəli Texniki Peşə məktəbində çilingər ixtisasına yiyələnib. 1981-1983-cü illərdə sovet ordusu sıralarında xidmət edib.

- Oğlumun qisməti beləymiş, - Zöhrab kişi bildirir. 1992-ci il avqustun 10-da cəbhəyə yollananda dedim: -Oğul, bilirəm od-alovun içinə gedirsən, müharibədir, hər şey ola bilər. Çalış diri ikən düşmən əlinə keçmə. Cavabı qısa oldu. "Arxayın ol, ata!"

Mübarizin komandiri, döyüş yoldaşı Mobil Əhmədov ötən günləri xatırlayaraq deyir:

- Bizim rota Xocavənd rayonunun Əmralılar kəndini qoruyurdu. 72 nəfər idik. Axşamdan bilirdik ki, ermənilər hücuma keçmək üçün böyük qüvvə toplayıblar. Mən bu barədə komandanlığa məlumat verdim. Kömək göndərəcəklərini dedilər. Lakin bizə kömək gəlmədi. Oktyabrın 2-də səhər tezdən erməni birləşmələri güclü hücuma keçdilər. Vəziyyət son dərəcə gərgin idi. Döyüşçüləri toplayıb axırıncı əmrimi verdim. And içdik ki, son güllləmizədək vuruşacağıq. Düşmən bizdən qat-qat güclü idi. Bu əməliyyatda onların 28-ə yaxın döyüş maşını, 1500 nəfər piyadası iştirak edirdi. Qeyri-bərabər döyüşdə Mübariz qəhrəmanlıq göstərərək son gülləsinədək vuruşdu. Axırda əlindəki qumbara ilə birlikdə özünü erməni tankının altına atdı. Döyüşdə 16 nəfər igid oğlumuzu itirdik, 23 nəfər yaralandı.

Bu torpağın ağrılarını dərindən duyan, erməni vəhşiliklərinə dözməyən Mübariz cəbhəyə getdiyi ilk gündən igidliyi, cəsarəti ilə döyüş yoldaşları arasında böyük nüfuz qazanmışdı. Dediklərimizi komandir köməkçisi M.Kərimovun göndərdiyi xasiyyətnamə də təsdiq edir. Həmin xasiyyətnamədən bir neçə cümləni xatırladırıq:

*"Mərhum Qaraxanov Mübariz Zöhrab oğlu hərbi xidmət günlərindən özünü çox cəsur əsgər kimi göstərirdi. Dəfələrlə komandirlərindən təşəkkürlər almışdı. Hərbi intizamı həmişə gözləyir, döyüş postunda daim ayıq-sayıq olurdu. Çox qorxmaz idi. Dəfələrlə ermənilərin postlara hücumlarının qarşısının alınmasında mərdliklə iştirak etmişdi".*

O gündən xeyli müddət ötsə də, oğul itkisinin ağrıları ailə üzvlərinin ürəyindən çıxmır. Zöhrab kişi bildirir ki, şəhid ailəsi kimi dövlət başçısından həmişə diqqət və qayğı görmüşük. Buna görə Prezident İlham Əliyevə, eləcə də, şəhid analarına, şəhid ailələrinə həmişə himayədarlıq göstərən Birinci vitse-prezident Mehriban xanım Əliyevaya ürəkdən minnətdarlığımızı bildiririk.

Qubada hamı Mübarizin xatirəsini əziz tutur. Quba şəhərindəki küçələrdən birinə onun adı verilib.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***




# Humanitar siyasət əməkdaşlığın əsasını təşkil edir

*Əvvəli 1-ci səh.*

Bir sözlə, Azərbaycanla Rusiya arasında münasibətlər, əlaqələr uzun bir tarixi dövrü, yüzillikləri əhatə edir. Bu iki ölkəni, Azərbaycan və rus xalqını təkcə sərhədlər deyil, həm də tarixi, siyasi, mədəni, sosial məsələlər bir-birinə birləşdirir. Hər iki xalq və dövlət arasındakı münasibətlər təkcə sərhədlərə dayanan qonşuluqla bağlı deyil, həm də dostluq və əməkdaşlığa əsaslanır. Bəzən bu münasibətlərdə müəyyən qalxmalar və enmələr olsa da, xalqlar arasında heç zaman ziddiyyətlər, gərginliklər yaşanmayıb. Bu, Azərbaycanın daim multikultural dəyərlərə önəm verməsinə əsaslanır. Rusiya və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə Bakı Beynəlxalq Humanitar Forumunun müntəzəm keçirilməsi də bu qəbildəndir.

Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin son 5 il ərzində dördüncü dəfədir Azərbaycanda olduğunu bildirən Azərbaycan Prezidenti İlham Əliyev forumda çıxışı zamanı özünün də müntəzəm olaraq Rusiyaya səfər etdiyini xatırladaraq deyib: “Bu da bizim tərəfdaşlığımızın, ölkələrimiz arasında dost, mehriban qonşuluq münasibətlərinin parlaq sübutudur”.

Son beş il müddətində tərəflər arasında müxtəlif sahələrdə keçirilən forum və işgüzar görüşlər müntəzəm xarakter daşıyır. Bütün bunlar isə eyni zamanda mədəni əlaqələrin inkişafına təkan verir. Bunların sırasında elm və təhsil sahəsində münasibətlər xüsusilə diqqət çəkir. Heç də təsadüfi deyil ki, bu gün 11 min nəfərədək azərbaycanlı tələbə Rusiyada təhsil alır. Onlardan min nəfərə yaxını isə Rusiya Federasiyasının büdcəsi hesabına oxuyur. 2010-cu ildən Bakıda Lomonosov adına Moskva Dövlət Universitetinin, 2015-ci ildən isə İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin filialları fəaliyyət göstərir.

Humanitar əməkdaşlıqdan söz düşmüşkən, Bakı Beynəlxalq Humanitar Forumu artıq bütün dünyada aktual problemlərin, müasir cəmiyyətlərin inkişaf məsələlərinin müzakirə olunduğu qlobal platforma kimi tanınır.

Bu gün dünyada 134 milyon insan qlobal səviyyədə humanitar yardıma ehtiyac duyur. Münaqişələr humanitar ehtiyacların ən böyük səbəbi olaraq qalır. Əlavə olaraq, qaçqınların sayı artır və onlar daha uzun müddətdə öz doğma torpaqlarından uzaqda qalırlar.

Bütün bunları nəzərə alaraq Azərbaycanın Rusiyadan gözlədiyi ən vacib siyasi addım bu ölkənin Dağlıq Qarabağ probleminin ədalətli həllinə yardım göstərməsidir. Ona görə də iki ölkə rəhbərləri arasında Dağlıq Qarabağ mövzusunda aparılan danışıqlar ictimaiyyət tərəfindən maraqla izlənilir. Prezident İlham Əliyevin Rusiyaya son rəsmi səfəri zamanı qeyd etdiyi kimi, müzakirə edilən məsələlər arasında ilk növbədə uzun müddət davam edən və Azərbaycan xalqının böyük iztirablarına gətirib çıxarmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması mühüm yer tutur. Çünki qonşu və tərəfdaş olan Rusiya münaqişənin nizamlanması ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədri kimi tənzimləmə işində mühüm rol oynayır.

Azərbaycanın dövlət başçısının beynəlxalq tədbirlərdə dəfələrlə bildirdiyi kimi, xalqımız böyük humanitar fəlakətlə üzləşib. Belə ki, təcavüzkar Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızda tarixi, dini abidələrimiz dağıdılıb, məhv edilib. İşğal altındakı ərazilərimizdə məscidlərimiz, qəbiristanlıqlarımız yerlə yeksan olunub, muzeylərimiz talan edilib və əslində orada mədəni soyqırımı törədilib. Həmin ərazilərə iki dəfə ezam olunmuş ATƏT-in faktaraşdırıcı və müşahidə missiyası öz məruzələrində bu barədə məlumat da verib.

Bakıda keçirilən VI Beynəlxalq Humanitar Forumda 90-dan çox ölkənin nümayəndələrinin toplaşması və onun sivilizasiyalararası, mədəniyyətlərarası, millətlərarası və dinlərarası münasibətlərin inkişafına dair dünya miqyasında dialoqun tərəqqisi üçün ən əhəmiyyətli məkanlardan birinə çevrilməsi də Azərbaycanla Rusiya arasında humanitar sahədə əldə edilən nailiyyətlərin bir göstərisici kimi dəyərləndirilir.

Rusiya Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Mariya Zaxarova Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunda və Moskva Dövlət Universitetində böyük Azərbaycan şairi və mütəfəkkiri İmadəddin Nəsiminin şərəfinə təşkil edilən silsilə tədbirləri, eləcə də Ümumrusiya Xalq və Dekorativ-Tətbiqi Sənəti Muzeyində Azərbaycan şairi Nizami Gəncəvinin poemaları əsasında “Yeddi gözəl” sərgisinin açılışını Rusiya-Azərbaycan humanitar əməkdaşlığında müsbət hadisə adlandırıb: “Biz bu tədbirləri ikitərəfli mədəni münasibətlərin inişafında pozitiv qiymtləndiririk”.

Rusiyalı diplomat forumda açıq şəkildə bildirib ki, Azərbaycanla sıx əməkdaşlıq edirlər və prezidentlər humanitar inkişaf məqsədlərinə ürəkdən sadiqdirlər. Onun fikrincə, uşaqlara üç dildə dərs keçilən məktəblər dünyada azdır. Uşaqlar və onun valideynləri təhsil dilini seçmək üçün Azərbaycanda bütün imkanlara malikdirlər. Bu halda uşaqlar başqa mədəniyyətlərlə, müxtəlif dillərlə tanış olur, onların bu və ya digər milliyyətə bağlılığı çox güclü inkişaf amilinə çevrilir. Müxtəlif millətlərin, mədəniyyətlərin və dinlərin qonşu olmasını güclü quruculuq prosesinə çevirmək böyük səy tələb edən ciddi prosesdir. Bu, dünya birliyinin bütün mütərəqqi qüvvələrinin birləşməsini tələb edir. Məhz belə forumlar humanitar əməkdaşlığın inkişafına daha geniş şərait yaradır.

Mariya Zaxarovanın fikrincə, Rusiyada da müxtəlif mədəniyyətlərin, sivilizasiyaların qarşılıqlı fəaliyyəti məsələsi bir nömrəli mövzudur: “Bizdə də uşaqlar məktəbə gedəndə Rusiyada yaşayan 119 xalqın dilində dərsliklər yaradılır. Xalqların qarşılıqlı fəaliyyətini quruculuğa çevirmək də çox böyük səy və zəhmət tələb edir. Əlbəttə, Bakının faktiki olaraq dünyada humanitar dialoqun həyata keçirildiyi paytaxta çevrilməsi təsadüfi deyil. Biz bu şəhərin hər bir cizgisində ənənələrə böyük hörmət nişanələri görürük. Biz burada muzeylər, tarixi mərkəz və eyni zamanda, bütün yeniliklərə və kreativliklərə açıqlıq görürük. Bu gün bu qədər çoxsaylı müasir memarlıq şedevrləri olan yerlər azdır. Bu, ölkə rəhbərliyinin və eyni zamanda, burada yaşayan və hər gün humanitar inkişaf istiqamətində irəliləyən bütün xalqın xidmətidir”.

Azərbaycan və Rusiya prezidentlərinin siyasi iradəsi və birgə səyləri nəticəsində ölkələrimiz arasında əlaqələr strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib və dövlət başçılarının qarşılıqlı səfərləri və müntəzəm görüşləri dövlətlərarası münasibətlərə yüksək dinamizm gətirir. Azərbaycan Respublikası Prezidentinin bu ilin sentyabrında Rusiyaya səfəri zamanı 16 sənəd imzalanıb. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin isə bu ilin sentyabrında ölkəmizə səfər çərçivəsində dövlət başçılarının iştirakı ilə IX Azərbaycan Rusiya Regionlararası Forumu keçirilib. Bu ilin 9 ayında Azərbaycana gələn rusiyalı turistlərin sayı ötən ilin müvafiq dövrü ilə müqayisədə 20 faiz artıb ki, bu da, əslində, tərəflər arasındakı mədəni əlaqələrin göstəricilərindən biridir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***“Azərbaycan”***

# Azərbaycan Ermənistan üzərində hərbi üstünlüyünü davamlı artırır

*Əvvəli 1-ci səh.*

Alınan yeni müasir silahlar isə bu fonda düşməni getdikcə daha çox qorxuya salır. Özü də burada nəzərə almaq lazımdır ki, ordumuz təkcə xaricdən alınan yox, həm də ölkə daxilində istehsal edilən silahar hesabına daha da güclənir. Belə ki, ölkəmizdə Müdafiə Sənayesi Nazirliyinin fəaliyyətə başlamasından sonra onun müəssisələrində ən müasir texnologiya və avadanlıqlarla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılıb. Görülən işlər nəticəsində 2018-ci ildə ümumi məhsul istehsalının həcmi 2007-ci illə müqayisədə 6,8 dəfə, müdafiə təyinatlı məmulatların həcmi isə 33 dəfə artıb. İstehsal olunan ümumi məhsulun 80 faizdən çoxu müdafiə, xüsusi təyinatlı məmulatlardır. İstehsalı mənimsənilən müdafiə təyinatlı məmulatların çeşidlərinin sayı 1200-ü keçib.

O da təqdirəlayiq haldır ki, nazirliyin müəssisələri beynəlxalq bazarlara çıxaraq müxtəlif tenderlərin qalibi olublar və bu da ölkəmizdə hazırlanan silahların yüksək keyfiyyətindən xəbər verir. Bu gün Müdafiə Sənayesi Nazirliyinin müəssisələrində yaradılan və istehsal olunan müxtəlif növ döyüş sursatlarının, müasir atıcı və artilleriya silahlarının, zirehli texnikaların, xüsusi təyinatlı patrul maşınının və digər məmulatların ixracı həyata keçirilir. Hazırda onlarla ölkəyə Azərbaycan istehsalı olan hərbi məhsullar ixrac edilir.

Beləliklə, Müdafiə Sənayesi Nazirliyi tərəfindən istehsal olunan hərbi məmulatlar Azərbaycan Silahlı Qüvvələri ilə yanaşı, bir sıra xarici ölkələrin ordularının da silahlanmasına qəbul edilir. Bütün bunlar həm də ordumuzun təminatının yüksək səviyyəsinin mühüm göstəricisi kimi çıxış edir.

İşğalçı ölkənin isə bu ordunun qarşısında durması sadəcə mümkünsüzdür. Özü də nəzərə alaq ki, Ermənistanda digər sahələrdə olduğu kimi, orduda da vəziyyət getdikcə daha acınacaqlı xarakter alır. Bütün parametrlər baxımından erməni ordusunun böyük tənəzzül içində olması aydın görünür. Bu halda istənilən savaş erməni ordusunun qısa zaman kəsiyində darmadağın olması ilə nəticələnəcək. Bundan xilas üçün yeganə yol ərazilərimizin işğalına son qoyulmasıdır.

İndi dünya miqyasında birmənalı qəbul olunan həqiqətdir ki, işğal siyasətinə son qoymayacağı təqdirdə qarşıdakı dövr ərzində Ermənistanı daha böyük problemlər gözləyir. Azərbaycan həm iqtisadi, həm hərbi, həm də demoqrafik cəhətdən Ermənistanı üstələməkdə davam edir. Bu vəziyyətdə işğalçı ölkə daha böyük problemlərlə üzləşib, ordumuzun sərt zərbəsini görmək istəmirsə, məntiqli hərəkət edib işğaldan əl çəkməlidir.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# İnsanların sağlamlığı dövlət üçün ən əsas vəzifədir

*Əvvəli 1-ci səh.*

Burada əsaslı təmir və yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev müəssisənin kollektivi ilə görüşündə demişdir: “Bu gün biz Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun əsaslı təmirdən sonra açılışını qeyd edirik. Bu münasibətlə institutun kollektivini ürəkdən təbrik edirəm. Bu gözəl hadisə münasibətilə bütün xalqımızı təbrik edirəm. Çünki bu institutun Azərbaycanda xüsusi yeri vardır. Təxminən bir əsrə bərabər ömrü olan bu bərpa mərkəzi yenidənqurmadan sonra indi ikinci həyatını yaşayacaq. Mən indi buradakı stendlərdə binanın əvvəlki vəziyyəti, tikinti zamanı çəkilmiş şəkilləri ilə tanış oldum. Onlar çox böyük maraq doğurur. Hələ 1925-ci ildə institutun tikintisi ilə bağlı müvafiq göstəriş verilmişdir. Bu institut 100 ilə yaxın müddət ərzində Azərbaycan sakinlərinə xidmət göstərmişdir. Siz - burada işləyənlər yaxşı bilirsiniz ki, bu institutun ölkəmizin səhiyyə sistemində xüsusi yeri var. Bilirəm, təmir zamanı vətəndaşlar gözləyirdilər ki, bu institut tezliklə açılsın və onun imkanlarından istifadə olunsun. Əlbəttə ki, bu gün burada yaradılan müasir şərait ən yüksək standartlara cavab verir. Həm təmir-tikinti işləri çox böyük peşəkarlıqla, zövqlə aparılıb, həm də burada quraşdırılan müasir avadanlıq, əlbəttə, xəstələrə ən yüksəksəviyyəli xidmət göstərəcəkdir. Bu gün öz sağlamlığını bərpa etmək istəyənlər mütləq buraya gəlib şəfa tapacaqlar”.

Gözəl memarlıq abidəsini xatırladan institutun binasının həm xarici görünüşü, həm də daxili dizaynı göz oxşayır. İnstitutun ərazisi də çox genişdir, təxminən 14 min 600 kvadratmetr sahəni əhatə edir. Bərpa və yenidənqurmadan sonra yaradılan şərait onu deməyə əsas verir ki, burada nəinki ölkə vətəndaşlarına, hətta xarici ölkə vətəndaşlarına da yüksək səviyyədə tibbi xidmət göstərmək mümkündür. Bu, bir daha ölkə Prezidentinin, eləcə də Heydər Əliyev Fondunun səhiyyə sahəsinə göstərdiyi diqqətin təzahürüdür. Bu, bir daha onu göstərir ki, insanların sağlamlığı Azərbaycan dövləti üçün ən əsas vəzifədir. Təsadüfi deyil ki, son 15 il ərzində ölkəmizdə təxminən 650-yə yaxın tibb müəssisəsi tikilib və ya əsaslı şəkildə təmir edilib. Qeyd etdiyimiz kimi, sovet dönəmindən qalmış, istifadəsi çətinliklər yaradan neçə-neçə şəfa ocağı yüksək səviyyədə təmir olunub. Heç kimə sirr deyil ki, bu gün ölkəmizin istənilən yerində yüksəkkeyfiyyətli tibbi müalicə almaq mümkündür.

Aparılan islahatlar, həyata keçirilən dövlət proqramları çərçivəsində, demək olar ki, bir sıra mərkəzi şəhər və rayon xəstəxanalarının tikintisi və əsaslı təmiri başa çatmaq üzrədir, bir neçə yeni xəstəxana binası isə öz açılışını gözləyir. Azərbaycan Prezidenti çıxışında əminliklə bildirmişdir ki, yaxın 1-2 ildə bu məsələ də öz həllini tapacaq: “Bu, ölkəmizin səhiyyə sisteminə verilən çox böyük töhfədir. Çünki bu gün hər bir şəhərdə, rayonlarımızın mütləq əksəriyyətində ən müasir standartlara cavab verən tibb müəssisələri fəaliyyət göstərir və vətəndaşlara xidmət edir. Əgər buna nail olmasaydıq, əgər səhiyyə sahəsinin maddi-texniki bazasını yaratmasaydıq, biz bu gün apardığımız siyasəti apara bilməzdik. Çünki bu gün sosial siyasətin tərkib hissəsi olan səhiyyə sahəsindəki islahatlar, qoyulan investisiyalar bir məqsədi güdür ki, Azərbaycan vətəndaşları sağlam olsunlar, Azərbaycanda yüksəksəviyyəli tibbi xidmət ala bilsinlər. Bildiyiniz kimi, son illər bütün ölkə üzrə 5 milyondan çox Azərbaycan vətəndaşı hər il pulsuz tibbi müayinədən keçir və aşkar edilən xəstəliklər müalicə olunur. Azərbaycan nadir ölkələrdəndir ki, belə genişmiqyaslı sosial layihə icra edilir. Mən dəfələrlə bildirmişdim ki, Azərbaycan vətəndaşları ildə ən azı bir dəfə tibbi müayinədən keçsinlər. Şadam ki, bu çağırışlar həyatda öz əksini tapır. Xüsusilə nəzərə alsaq ki, hər bir yerdə müayinədən keçmək üçün şərait var və 5 milyondan çox insanın bu imkanlardan istifadə etməsi bizim siyasətimizin qələbəsidir”.

Məmnunluq doğuran haldır ki, ölkəmizdə bu sahədə aparılan işlər beynəlxalq təşkilatlar tərəfindən də yüksək qiymətləndirilir. BMT-nin Minilliyin İnkişaf Məqsədləri Proqramı çərçivəsində, o cümlədən səhiyyə sahəsində aparılan işlər yüksək dəyərə layiqdir. Həmçinin Dünya Səhiyyə Təşkilatı ölkəmizdə səhiyyə quruculuğu ilə bağlı görülən işləri həmişə dəyərləndirir. Bir sözlə, bu sahədə aparılan islahatlar və dövlət tərəfindən qoyulan vəsait öz nəticəsini verir. Ona görə də Azərbaycan vətəndaşları istənilən vaxt sağlamlıqlarının qayğısına qala bilir, gənc nəsil sağlam həyat tərzi sürür. İnsanların sağlamlıqlarını təmin və bərpa etmək üçün Azərbaycanda istənilən şərait var.

***Rəhman SALMANLI,***
***“Azərbaycan”***

# İki dəniz arasında iki dövlətin sülh və savaş çağırışları

Diplomatiya beynəlxalq siyasətin elə fəaliyyət növüdür ki, bütün qələbələr sülhlə, danışıqlar yolu ilə əldə edilir, müharibə aparılmır. Azərbaycanın yeritdiyi sülh siyasəti, ən mürəkkəb, mübahisə doğuran məsələlərin diplomatik danışıqlar yolu ilə həll etməsi, Qafqazda və dünyada sabitliyin qorunmasına verdiyi əvəzsiz töhfələr göz qabağındadır. Prezident İlham Əliyevin diplomatik gedişləri, siyasi danışıqları sülh məcrasına yönəltmək bacarıqları son 15 ildə Azərbaycanın beynəlxalq aləmdə nüfuzunu birə-on artırmışdır.

Dövlət başçısının müdrik və uzaqgörən siyasəti Xəzərin statusu ilə bağlı on illiklər boyu dalana dirənən qarşılıqlı iddiaların və anlaşılmazlıqların düzgün həllini tapmağa imkan verdi. Eyni zamanda Qara dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının sonuncu Bakı toplantısı da Azərbaycanın iki dəniz arasında və dünyada sülhə və sabitliyə can atan diplomatik səylər göstərən dövlət olmasını siyasi aksioma kimi ortaya qoydu. Azərbaycan kimi müstəqilliyini yeni elan edən və siyasi imicini formalaşdıran gənc dövlət üçün bütün bunlar böyük diplomatik qələbələrdir.

Bu baxımdan qədimliyini, dünyəvi və demokratik dəyərlərə “sədaqətini” əlində bayraq edən işğalçı Ermənistanın “diplomatik fəaliyyəti” acı ironiya doğuran parodiyanı, məzhəkəni xatırladır. Çünki diplomatiya dövlətin bütün siyasi məqsədlərinin sülh və danışıqlar yolu ilə əldə edilməsini tələb edirsə, Ermənistan “diplomatiyası” ən sadə məsələlərin də həllini müharibələrin dalanına dirəməkdə “xüsusi məharət” nümayiş etdirir.

Erməni terror təşkilatlarının böyük güclərin xüsusi xidmət orqanları ilə izdivacından Qafqazda “bic doğulan” bu dövlətin ideoloqları Ermənistanın yaranışından yüz il əvvəl də, yüz il sonra da hamıya qarşı ərazi iddialarından əl çəkə bilmirlər. Ermənistanın siyasi elitası hakimiyyətdə hansı qüvvələrin təmsil olunmasından asılı olmayaraq böyük güclərlə bütün əməkdaşlığını Qafqazda müharibə ab-havasının körüklənməsi üzərində qurur. Erməni millətçilərinin əbədi müharibə cəhdləri diplomatiyadan daha çox cılız və ağlını itirmiş faşist ambisiyaları ilə bağlıdır.

Bu baxımdan iki dəniz arasında Azərbaycan və Ermənistanın diplomatik səyləri fərqlidir və daha doğrusu, əksqütblüdür.

Azərbaycanın diplomatik sülh səyləri aydındır, göz qabağındadır. Ermənistan isə işğalçılıq siyasətini gizlətmir, iki dəniz arasında daha böyük əraziləri qamarlamaq, ələ keçirmək üçün dünyanın böyük güc mərkəzləri ilə istənilən məzmunda əməkdaşlığa gedir, istənilən vaxt da siyasi rəqiblərini əlcək kimi dəyişir. Artıq bu dövlətin beynəlxalq aləmdə ironiya doğuran “xəyanətkar məşuqə” ayaması ilə damğalanması da təsadüfdən daha çox qanunauyğunluqdur.

Cənubi Qafqazda coğrafi mənada yan-yana yaşayan, hərbi müstəvidə isə təmas xətti boyu səngərlər qazıb müharibənin atəşkəs adlı sükutu altında üz-üzə dayanan iki dövlət sülh proseslərinə fərqli münasibət bəsləyir. İşğalçılıq ambisiyaları Ermənistanı təcrid edir və məhvə aparır.

Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdəki çıxışında Prezident İlham Əliyev bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşandığını, insanların ölkəni kütləvi surətdə tərk etdiyini, xarici sərmayələrin qoyulmadığını diqqətə çatdırdı: “Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır”.

Dövlət başçısı həqiqəti deyir. Azərbaycan diplomatiyası, Ermənistanın savaş ritorikasından fərqli olaraq, müasir dövrün tələbləri səviyyəsində qurulur və elmi əsaslarla aparılır. Azərbaycan neytrallığını qoruyur, diplomatik ünsiyyətlərin artırılmasına, danışıqların aparılmasına, münaqişəli məqamların açıq müzakirəsinə gedir. Rəsmi və işgüzar səfərlərə üstünlük verilir. Bakı artıq neytral ölkə kimi böyük güclərin diplomatik görüşlərinə, çoxsaylı beynəlxalq tədbirlərə, konfranslara, forumlara evsahibliyi edir, ikitərəfli və çoxtərəfli beynəlxalq sazişlərin bağlanılmasında, digər diplomatik sənədlərin imzalanmasında fəaldır, beynəlxalq təşkilatların işində iştirak edir. Bütün bu diplomatik səylərin fonunda Ermənistanın təcridi güclənir. Artıq vəziyyət elədir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da rəqibimizi vahiməyə salan üstünlüklər əldə edə bilirik.

İrəvan beynəlxalq münasibətlər sistemində bütün qonşularına diş qıcayır, hamını müharibəyə sürükləməyə açıq və gizlin cəhdlər edir. Bakı isə Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin görüşlərinə evsahibliyi edir və artıq Qafqazın Cenevrəsi titulunu qazanan neytral paytaxta çevrilmişdir. Bu da bizim böyük diplomatik uğurumuzdur. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkənin, o cümlədən Avropadakı 50 dövlətin arasında belə görüşlərin keçirilməsi üçün neytral və etibarlı dövlət kimi məhz Azərbaycan paytaxtının seçilməsi erməni diplomatiyasına vurulan şapalaq təsiri bağışlayır. Ermənistan beynəlxalq aləmdə “sədaqətini itirmiş məşuqə” kimi hamının gözündən düşdükcə, qardaşlıq andı içdiyi ölkələrə göz qırpımında arxa çevirdikcə Azərbaycan çox etibarlı tərəfdaş, sözü ilə əməli düz gələn müttəfiq kimi nüfuzunu gücləndirməkdədir.

Rusiya siyasi elitasının Azərbaycana bütün səfərləri, bir qayda olaraq, İrəvanı ziyarətdən sonra baş tutardısa, indi Şimal qonşumuzun Prezidenti də, xarici işlər naziri də yalnız Azərbaycana gəlir və Ermənistana səfərlərini təxirə salırlar, ya da birdəfəlik gündəlikdən çıxarırlar. Azərbaycan paytaxtı Qafqazda sülhün bərqərar olması üçün beynəlxalq əlaqələrin bütün imkanlarından yararlanmağa çalışır, Ermənistan paytaxtından dalğalanan savaş ritorikası və “sürüşkən gəlin” diplomatiyası bu ölkəni beynəlxalq münasibətlər sistemindən və bütün iqtisadi layihələrdən təcrid edir.

Bu gün Azərbaycan iki dəniz arasında sülhün bayrağını hamıdan ucaya qaldıra bilən, daimi əməkdaşlığa sadiq qalan möhtəşəm ölkədir. Ermənistan əbədi sədaqət andı içdiyi Rusiyaya asanlıqla arxa çevirsə də, Azərbaycanın şimal qonşusu ilə münasibətləri sabit və artan dinamika ilə inkişaf edir, strateji tərəfdaşlıq əlaqələri gündən-günə güclənir. Eyni zamanda neytral ölkə kimi NATO ilə bir çox proqramları həyata keçirir.

Son altı ayda Azərbaycanın sədrlik etdiyi Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının xətti ilə keçirilən tədbir də Bakının beynəlxalq aləmdə nüfuzunun getdikcə artmasını təsdiq edir. Ötən həftənin sonunda Türkiyənin, Rusiyanın və İranın xarici işlər nazirlərini qəbul edən Prezident İlham Əliyev bir daha Azərbaycan dövlətinin sülhə və diplomatik münasibətlərin səmimi inkişafına maraqlı olduğunu sərgilədi. Rusiyanın xarici işlər naziri Sergey Lavrov Vladimir Putinin ən xoş arzularını və salamlarını Azərbaycan Prezidentinə belə çatdırdı: “O, sizin strateji tərəfdaşlığımızı irəli aparmağa imkan verən şəxsi münasibətinizi yüksək qiymətləndirir. Artıq hesabladığımız kimi, sizin bu il altı dəfə keçirilən görüşləriniz, son görüşləriniz, o cümlədən qarşılıqlı səfərlər zamanı əldə olunan razılaşmalar yerinə yetirilir”. S.Lavrov iki ölkə arasındakı humanitar əlaqələrin Rusiya və Azərbaycanın regionları arasındakı qarşılıqlı fəaliyyətə təkan verəcəyini bildirib. O, eyni zamanda Azərbaycanla beynəlxalq arenada, BMT-də, Avropa Şurasında qarşılıqlı fəaliyyəti qiymətləndirdiyini, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Bakı ilə Yerevan arasında birbaşa dialoqa kömək göstərməyə davam etmək niyyətində olduqlarını diqqətə çatdırıb: “Rusiya Federasiyası həm öz səyləri ilə, həm də ATƏT-in Rusiya, Fransa və ABŞ-ın daxil olduğu Minsk qrupunun həmsədr üçlüyünün üzvü kimi bu cür razılaşmaların əldə edilməsinə nail olmaq üçün əlindən gələni edəcək”.

Beləliklə, Azərbaycanın diplomatik səyləri bütün istiqamətlərdə bəhrəsini verir, dövlətimizin Xəzər və Qara dəniz arasında sülhün bayraqdarı kimi şərəfli vəzifəni icra etdiyini göstərir. Ermənistan isə hələ də işğalçılıq ambisiyalarından əl çəkmədiyi üçün Qafqazda münaqişələrin uzanmasında, gərginliyin saxlanılmasında və ən yaxın müttəfiqləri ilə belə istənilən məqamda münaqişəyə getməyə hazır olduğunu ortaya qoyur.

Ermənistanın hətta öz müttəfiqləri arasında nüfuzunun heçə enməsini sübut edən bir faktı da açıqlamaq yerinə düşərdi. Belarusun kütləvi informasiya vasitələri rusiyalı jurnalistlərlə görüşündə Prezident Aleksandr Lukaşenkonun Nikol Paşinyanın Azərbaycana silahların satışı ilə bağlı narazılığına verdiyi cavab barədə məlumat yayıb. A.Lukaşenko qeyd edib ki, bu söhbətdə Azərbaycan Prezidenti də iştirak edirdi: “Putinin yanında ona dedim: Nikol, gəl hər şeyə nöqtə qoyaq. Azərbaycanla silah ticarətində birinci yeri kim tutur? Kim? Cavab Rusiyadır. Bəs niyə dilini bir yerində gizlətmişdin? Ona de, Vladimir Vladimiroviçi tənqid et. Nədir, qorxursan?.. Bax niyə Belarusun üstünə hücum çəkirsən? Özününkülərə hücum edirsən ki, başqaları da anlasın? Elədirsə, bunu de, onda mən susaram”.

Həqiqətən də dostu ilə düşmənini ayıra bilməyən dövlətin aqibəti acınacaqlı olur.

***Bahadur İMANQULİYEV,***
***“Azərbaycan”***

# Kədərlə qürurun qoşalaşdığı şərəfli gün







Atəşkəsdir, lakin müharibə davam edir. Düşmənə nifrətimiz, qəzəbimiz, kinimiz alov kimi içimizdə püskürməkdə, kükrəməkdədir.

Milli Qəhrəmanımız Mübariz İbrahimovun Şuşanın, Ağdamın və bütün işğal edilən ərazilərin düşməndən şəxsən və təkbaşına qisas almaq üçün təmas xəttini keçməsi, işğalçılara misilsiz divan tutması, erməni ordusunu vahiməyə salması barədə o, şəhidlik zirvəsinə ucaldığı gündən üzü bəri “Azərbaycan” qəzeti mütəmadi yazılarla çıxış edir. Dərc etdiyimiz yazıların bir çoxu yerli və Türkiyənin elektron kütləvi informasiya vasitələrində tirajlanıb. Biz bir qəzet kimi Milli Qəhrəmanımız Mübariz İbrahimovun igidliyini məşəl kimi başımızın üstündə ucalıqlara qaldırmağı vəzifəmiz və mənəvi borcumuz saymışıq. Bu gün bir daha bu mövzuya qayıtmaqdan qürur hissi keçiririk. Onun 18 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçməsi, düşmənin çox sayda əsgər və zabitini bircə həmlədə gəbərtməsi dünyaya səs saldı, bu döyüşü Azərbaycan əsgərinin şücaət abidəsinin rəmzi kimi vəsf etdik. Şəhidin valideynlərini ziyarət etdik, kədərlərinə və mətinliklərinin qüruruna şərik olduq. Mübariz bu qeyri-bərabər doyüşdə ələ keçirdiyi düşmən silahlarından istifadə edərək 5 saat erməni faşistləri ilə səhərədək son nəfəsinə kimi döyüşdü.

Biz şəhidin ata yurdunu ziyarət edəndə eşitdiyimiz bu oldu ki, şəhid Mübarizin atası da, anası da övladlarının cəsədinin düşməndən geri alınması üçün dövlətimizin erməni faşistlərinə minnətçi düşməsini istəməyiblər. “Balamızı Vətənə fəda verdik, Vətən sağ olsun” deyiblər!

İkinci Dünya müharibəsində həlak olan on minlərlə azərbaycanlı da dəfn olunmayıb! Məzarları yoxdur!

Qarabağ müharibəsində itkin düşənlərin sayı-hesabı yoxdur!

Müharibənin qanunları belədir: baş verən hadisələr, əslində, heç bir qanuna tabe deyil, heç bir məntiqə sığmır. Beynimizdə nəbz kimi çırpınan, ruhumuzu alışdırıb qisasa çağıran odur ki, işğal altında qalan torpağımızın hər qarışı bir şəhid Mübariz qədər müqəddəsdir, toxunulmazdır! O zaman şəhid atası dilə gətirməsə də, ummasa da, necə öz əlləri ilə balasını torpağa tapşırıb toxtamaq arzusunda idisə, bu gün də milyonlarla insan işğaldan qan bahasına geriyə qaytaracağımız yerləri məhəbbətlə öpüb gözünə çəkmək, sığal verib oxşamaq, kin-küdurətini kiritmək arzusundadır.

Mübarizin valideynlərinin bir dəfə də dilə gətirmədikləri istək üçün Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bütün qüvvəsi ilə çalışdığını şəhidin vida mərasimində ayrıca qeyd etdi: “Bu aylar ərzində biz çalışırdıq ki, tezliklə onları Vətənə qaytaraq. Baxmayaraq ki, bu, çox çətin idi. Ermənistan tərəfi heç bir sivil qaydalara əməl etmədən qəhrəman övladlarımızın meyitlərini qaytarmaqdan imtina edirdi. Bu, misli görünməmiş vəhşilikdir. Heç bir mənəviyyata, heç bir dini normalara sığmayan bir hərəkətdir”.

Miladdan üzü bəri də, iki min il o yana da bütün cənglərdə vuruşan tərəflər bir-birlərinə döyüş meydanından cəsədləri aparmağa imkan yaradıblar. Bütün qədim savaşların da qaydası belə idi. Hər iki tərəf əsgərlərini torpağa tapşırıb toxtaya bilirdi. Ermənilərin faşist ideoloqları anlamadı ki, igidlərimizi özlərində saxladıqca qəlbimizdə qəhrəmanlarımıza rəğbət və sevgimiz də birə-min artır. Bizi qırmaq, sındırmaq istədikcə biz gücləndik, daha da sıx birləşdik və düşmən üçün daha böyük gücə çevrildik. Bütün Ermənistan isə igidlərimizin nəşi ayağında rəzil düşdü, miskin, mənəviyyatsız və cılız göründü!

Mübariz şəhidlik zirvəsinə ucaldığı gündən onun doğulduğu həyətə minlərlə gənc ziyarətə gəlir və qəhrəmanın atasına başsağlığı vermək əvəzinə xeyir-dua istəyirlər ki, Ağakərim dayı, Allah Mübarizin yolunu bizə qismət eləsin, bizə də bunu arzulayın! Mübariz öz qəhrəmanlığı ilə yüz minlərlə gənci ayağa qaldırdı, minlərlə Mübarizin yetişməsinə qol-qanad verdi. Heyrətlənməmək, qürur hissi keçirməmək mümkün deyil!

Bizdən ucalarda, insan təfəkkürünün qət edə bilmədiyi intəhasız məsafələrin sonunda əsl Vətən sevgisinin surəti müqəddəs nümunə kimi qorunur, saxlanılır və yalnız bəşər övladlarından Mübariz kimi seçilmişlərə hədiyyə edilir.

Qarabağ müharibəsində həlak olan istənilən günahsız dinc sakin, istənilən şəhid hər birimizin övladı, qardaşı, bacısıdır! Bu gün hər birimizin ruhunun bir parçası məzarda yatır və bizi incidir. Qisas hissi ölmür!

Azərbaycan əsgəri 20 il də, 100 il də bundan əvvəl mərd, döyüşkən olub. Bu gün bu güc daha qüdrətli, daha əzəmətli və qətiyyətlidir! Azərbaycan Ordusu ən müasir silahlarla təchiz edilib, yüksək döyüş qabiliyyətinə malikdir və dünyanın ən müasir orduları sırasındadır.

Mübariz ürəkdolusu qürrələnərdi: “Döyüşmək, vuruşmaq istəyən qeyrətli oğullar çoxdur! Gözlərində ölüm qorxusu yoxdur! Bircə himə bənddirlər! Yerlərindən qopsalar, qarşılarını almaq, onları saxlamaq mümkün olmayacaq!”

Biz Lələtəpə uğrunda gedən döyüşlərdə bir daha Mübarizlərin nəyə qadir olduğunu gördük.

Mübariz valideynlərinə döyüşdən əvvəl yazdığı vida məktubunda deyirdi: “Canım atam və anam. Məndən sarı darıxmayın. Vətənin dar günündə artıq ürəyim dözmür. Allaha xatir bunu etməliyəm. Ən azından ürəyim sərinlik tapar. Şəhid olanadək bu şərəfsizlərin üzərinə gedəcəyəm. Şəhid olsam - ağlamayın. Əksinə, sevinin ki, o mərtəbəyə yüksəldim”.

2010-cu ildə Mübarizin yazdığı bu məktuba bu gün hər bir əsgərimiz imza atmağa hazırdır. İnsan bu dünyaya gəlir və gedir, amma qəhrəmanlıq, şərəf gətirən şəhidlik hər igidə nəsib olmur.

Qardaşımız Ağakərimin, bacımız Şamamanın oğlu və bütün şəhidlərimiz bizim də balamızdır və onların qəhrəmanlığı hər birimizin ürəyində əbədi rəşadət rəmzinin məşəli kimi yanacaq! Bu çırağın işığı, nuru hələ çox qəhrəmanlıqlara təkan verəcək və çoxlarını çəkib arxasınca aparacaq!

Mübariz İbrahimovun qəhrəmanlığı yalnız ordu üçün yox, bütün Azərbaycan xalqı üçün xüsusi məna kəsb edir. O, bir əsgər kimi ruhən zəngin idi. Daxilində vətənə elə müqəddəs bir sevgi vardı ki, onu öz ölümü belə bu yoldan daşındıra bilməzdi! O gündən üzübəri orduya çağırılan gənclərin hər biri düşməni Mübariz kimi məhv etməyə, son nəfəsinədək döyüşməyə hazırdır.

Mübariz gecənin qaranlıqlarında təkbaşına nərə çəkərək, içində gurlayan qəzəbin və kinin gücüylə düşmənin üstünə atıldı! İşğal olunmuş ərazilərdə, özgə torpağı üstündə gəzən düşmən bu xofdan, əzəmətli vahimədən özünə gələ bilmədi. İndi də erməni səngərlərində bu ad gələndə diksinirlər, qorxurlar! Yalnız bir Azərbaycan əsgəri bircə həmləsiylə işğalçı Ermənistan ordusunun nə qədər aciz və zəif olduğunu ortaya qoydu. Əvvəl Rusiyanın, indi də Qərbin qucağında mürgü vurub məzələnən erməni millətçiləri bir nəfərin qəhrəmanlığının timsalında ordumuzun möhtəşəmliyinin şahidi oldular.

Mübarizin torpağa tapşırıldığı gün, dövlətin təşkil etdiyi vida mərasimi ölkəmizin tarixində fəlsəfi məzmununa görə xalqla dövlətin vəhdətini özündə ehtiva edən unudulmaz və bənzərsiz hadisələrdən biridir. O günü indi də unutmaq mümkün deyil. Sanki bütün ölkə vahid, canlı bir orqanizm kimi idi. Hamımız - kiçikdən böyüyə, əsgərdən Ali Baş Komandana qədər, orada olub-olmamağımızdan asılı olmayaraq, sanki bu vida mərasimində bir bayrağın altında idik. Azərbaycan Prezidenti İlham Əliyev də orada idi. Bu, vida mərasimindən daha çox Üzeyir bəyin “Koroğlu” operasının uvertürası qədər qələbənin təntənəsini və vətən uğrunda ən müqəddəs savaşın hələ irəlidə olduğunu anladan əzəmətli döyüş cəngisi idi. Yəqin, çoxları xatırlayar ki, Ali Baş Komandan bu gün kədərlə qürurun qoşalaşdığını vurğuladı: “Bu gün çox kədərli bir gündür. Eyni zamanda, çox şərəfli bir gündür”.

İlham Əliyev bu mərasimdə etiraf etdi ki, “Mübariz yaxşı bilirdi ki, o döyüşdən sağ-salamat çıxa bilməyəcək. Ancaq Vətən, torpaq sevgisi, onda olan vətənpərvərlik ruhu onu şəhidlik zirvəsinə ucaltdı. Mübariz bütün gənclər üçün örnəkdir, nümunədir”.

Biz həmişə sərkərdələri ordunun başında görmüşük. Həmin gün isə generallar Mübarizlə Fəridin fəxri keşiyində dayanmışdılar. O günü Milli Qəhrəman Mübariz İbrahimovla şəhid baş leytenant Fərid Əhmədovun cənazələri Şəhidlər xiyabanına gətirildi, son mənzilə yola salındı. Dəniz kimi kükrəyən izdiham yaylım atəşinin göylərdən qayıdan sədaları altında igidlərimizlə vidalaşdı. Bütün bunlar unudulması mümkün olmayan müqəddəs xatirələrdir.

Dövlət başçısı öz vəzifəsini şəhidin vida mərasimində iştirakla bitmiş hesab etmədi. Mübariz İbrahimova Vətənin müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə Azərbaycanın Milli Qəhrəmanı adını verdi. Başqa bir sərəncamı ilə xatirəsinin əbədiləşdirilməsi üçün Biləsuvar rayonunun orta məktəblərdən və rayon mərkəzindəki küçələrdən birinə onun adının verilməsini tapşırdı və bu, yerinə yetirildi.

Müdafiə Sənayesi Nazirliyinin istehsal etdiyi “İstiqlal” snayper tüfəngləri ailəsindən 12.7 mm çaplı ikinci tüfəngə onun şərəfinə “Mübariz” adı verildi. 2011-ci il 15 iyunda Biləsuvar şəhərində Mübariz İbrahimovun heykəlinin və Əliabad kəndi ərazisində Prezident İlham Əliyevin tapşırığı ilə ailəsi üçün tikilmiş yaşayış evinin açılışı oldu. Həmin ildə “Palmali” şirkətinin Türkiyədə hazırladığı yük gəmisi də “Mübariz İbrahimov” adlandırıldı. 2014-cü ildə Kanadanın Ottava şəhərində yerləşən Minto parkında Azərbaycan icmasının təşəbbüsü ilə qəhrəmanın adına xatirə lövhəsi vuruldu. 2016-cı ildə Sumqayıtda küçələrdən birinə Mübarizin adı verildi, Azərbaycan Dövlət Neft və Sənaye Universitetində isə heykəli ucaldıldı.

Onun haqqında 2010-cu ildə rejissor Etibar Məmmədov “Müqəddəs zirvə” filmini çəkdi. Türkiyədə onun qəhrəmanlığı dillərdə dastana çevrildi. 2013-cü ildə Mübariz İbrahimovun qəhrəmanlığına TRT 1 kanalında nümayiş olunan “Sakarya Fırat”, 2014-cü ildə nümayiş olunan “Qızıl Alma” seriallarında geniş yer ayrılmışdır. Fəxrəddin Mustafayev “Mübarizlər yolu”, Maarif Köçkün “Mübariz cəsarəti”, Zaur Ustac “Oriyentir Ulduzu” kitablarını yazdılar. Elxan Elatlı “Qisas gecəsi”, Balayar Sadiq “Hünər simfoniyası”, Baxşeyiş Abbasoğlu “Ölüm son deyil... və yaxud əbədiyyət nəğməsi”, Mustafa Çəmənli “Mübariz” romanlarını, Rauf İlyasoğlu “Vətən sağ olsun” poemasını yazdılar.

Mübariz Azərbaycanın hərb tarixində heç vaxt sönməyən bir günəşdir! Amma təəssüf ki, bəzən ən müqəddəs hislərimizi də yaralamaq istəyənlər tapılır. Son günlər psixoloq adı altında gündəmə gələn, amma nə psixologiyaya, nə də müharibəyə dəxli olan bəsit dünyagörüşlü, dayaz təfəkkürlü birisinin xalqımızın baş əydiyi, ruhu önündə səcdəyə getdiyi igid oğlunun şəhidliyini şübhə altına almağa cəhdi nifrət və təpki ilə qarşılandı. Əslində bu üzdəniraq “psixoloq” heç bircə kəlmə ilə də tənqid olunmağa layiq deyil. Faciəvi dərəcədə savadsızdır, şəxsiyyət kimi natamam, insan kimi kal, vətəndaş kimi cılızdır. Əməlinə görə üzr istəsə də, görünür ki, idarə olunur, kimlərinsə əlində oyuncaqdır, kimlərinsə vədlərindən ilhamlanıb. Mühakimələri sayıqlamağa bənzəyir, Mübarizin ucaldığı zirvələrin ətəyində imekləməyə belə layiq deyil. Dövlət onu öz vicdanının mühakiməsinə buraxıb. Xalq isə onun çıxışlarına sosial şəbəkədə 6 min nifrət dolu kommentlə cavab verib. Min onun kimisi yığılsa belə Mübarizin nüfuzuna azacıq da xələl gətirmək gücündə deyil! Onun deməyindən belə çıxır ki, biz işğalçı qoşunu əvvəl yuxudan oyatmalıyıq, süfrə açıb səhər yeməyini verməliyik, yalnız bundan sonra döyüşə dəvətnamə göndərməliyik. Ona fikir verilməsə, daha yaxşı olar. Bu üzdəniraq “psixoloq” düşünür ki, Qarabağda düşmən bizim yatan əsgərlərin heç birini öldürmür, dinc sakinləri, uşaqları qətlə yetirmir və hamısı ağzı əmzikli mama uşaqlarıdır. Atalarımızın müdrik bir kəlamı var: dərd o deyil ki, xəstəsən, ehtiyac içindəsən! Dərd odur ki, sənə deyirlər, amma sən anlamaq iqtidarında deyilsən. Görünür, bu üzdəniraq “psixoloq” da nə etdiyini ya anlamır, ya da, ola bilsin ki, ölkədən çıxıb özünə “gün ağlamaq” üçün bu yolu seçib!







*Bahadur İMANQULİYEV,*
*“Azərbaycan”*

---

# “Yeni media”da kim birincidir?

## Təhsil Nazirliyi sosial şəbəkələrdə ən fəal dövlət qurumudur

Deyilənə görə, qəzet, radio və televiziyanı özündə ehtiva edən ənənəvi media vasitələrinin elektron-internet resursları və sosial şəbəkələrdən ibarət “yeni media” və ya sosial mediaya keçid mediaya transformasiyanın əsasını təşkil edir.

Bu gün dünyada “yeni media” anlayışının müxtəlif izahlarına rast gəlmək olur. Bir qrup ekspert buraya bütün rəqəmsal və elektron informasiya ötürücülərini - elektron qəzetləri, radio və televiziyaları daxil edirsə, digər qrup mütəxəssislər yeni medianın bəşəriyyəti bir araya gətirən və onu vahid topluya çevirən sosial şəbəkələrdən ibarət olduğunu söyləyir. Vaxtilə qəzet, jurnal, radio və televiziya kimi ənənəvi informasiya əldə etmək vasitələri var idisə, bu gün internet saytları, “Twitter”, “Facebook”, “YouTube”, “Instagram” kimi sosial media ünsiyyət vasitələri yeni kommunikasiya üsullarına çevrilib.

### Dünya fərdi informasiya vasitələri erasına qədəm qoyur

Araşdırmalar göstərir ki, hər beş nəfərdən biri lazım olan informasiyanı sosial media vasitəsilə əldə edir. Bu gün sosial media ən məşhur xəbər platformasına çevrilib. Belə ki, indi 36 faiz insan məlumatı sosial mediadan, xəbər saytlarından, 16 faiz televiziyadan, 13 faiz radiodan, 2 faiz isə çap mətbuatından əldə edir.

Tədqiqatçılar hesab edirlər ki, kütləvi informasiya vasitələri erasının sonu yaxınlaşır, hazırda dünya fərdi informasiya vasitələri erasına qədəm qoyub. İnformasiya fərdi ötürülür və fərdi olaraq qəbul edilir. Sosial media vasitəsilə dünyada, elə ölkəmizdə də baş verən xəbərləri qısa bir zamanda öyrənə bilərik. Artıq Azərbaycanda da informasiyalar sürətli rabitə vasitəsi sayılan sosial media vasitəsilə paylaşılır. Biz də inkişaf edir, qloballaşan dünya ilə ayaqlaşırıq. Prezident İlham Əliyev də çıxışlarında qeyd etmişdir ki, elektron xidmətə keçid qarşısıalınmaz bir prosesdir və bu proses sürətlə həyata keçirilməlidir. Ölkə rəhbəri internetə məlumat mənbələrindən biri kimi yanaşdığını bildirib.

Bəs dövlət qurumları, nazirliklər tərəfindən informasiyanın idarəolunması prosesi necə icra edilir, kommunikasiya vasitələrindən, sosial şəbəkələrdən hansı səviyyədə istifadə edilir? Bu suallara cavab tapmaq üçün müxtəlif qurumların internet resurslarından hansı səviyyədə istifadə etməsi barədə monitorinq aparılıb.

### Dövlət qurumları sosial medianın imkanlarından fəal şəkildə istifadə edir

Monitorinq zamanı onların sosial şəbəkələrdəki hesabları təhlil edilib. Nəticələrə əsasən qeyd edə bilərik ki, son dövrdə bir çox dövlət qurumları genişlənən sosial medianın imkanlarından fəal şəkildə istifadə etməkdədir. Təhlillər göstərir ki, Azərbaycanda dövlət orqanlarının fəaliyyətində internetin imkanlarından istifadə edilməsi artmaqdadır. Onlar sosial şəbəkələrin xidmətlərindən fəal surətdə istifadə edir, layihələri, tədbirləri haqqında məlumatları öz səhifələrində istifadəçilərlə paylaşırlar. Artıq bir çox qurumların həm internet saytları aktivdir, həm də sosial şəbəkə hesabları daimi yenilənir, görülən işlər müxtəlif vasitələrlə ictimaiyyətə təqdim edilir.

Bu sırada Təhsil Nazirliyi, Gənclər və İdman Nazirliyi, “ASAN xidmət” və digər qurumları göstərmək olar. Təhlillərimiz göstərir ki, sosial medianın “Facebook”, “Twitter”, “Instagram”, “YouTube” kimi imkanlarından istifadədə isə Təhsil Nazirliyi daha aktivdir. “Facebook” sosial şəbəkəsində Təhsil Nazirliyinin 100144 nəfər izləyicisi var. “Twitter” üzrə hesablamalara əsasən deyə bilərik ki, 1336, “Instagram” üzrə isə 25425 izləyici ilə aktivlik yenə Təhsil Nazirliyinə aiddir. “YouTube” üzrə yenə ön sırada Təhsil Nazirliyidir (8866 abunəçi və 2 milyona yaxın baxış sayı ilə). Xatırladaq ki, bir çox qurumlar “Facebook” sosial şəbəkəsinin yaratdığı “canlı yayım” vasitəsindən də faydalanırlar. Bu sırada yenə də Təhsil Nazirliyi öndə gəlir.

Onu da qeyd edək ki, hazırda Azərbaycanda “Facebook”, “Twitter”, “YouTube”, “Instagram” və digər sosial şəbəkələrdə istifadəçilərin sayı 2 milyondur.

Monitorinqin nəticəsi onu göstərir ki, dövlət qurumlarının sosial mediadan istifadə etməsi ənənəvi media ilə yaşanan problemlərin həllinə də müsbət təsir göstərmiş olur. Onlar internet əsaslı media vasitələrindən daha yaxşı istifadə etməklə, ictimaiyyətlə əlaqələrini genişləndirə bilər ki, bunu Təhsil Nazirliyinin praktikasından da aydın görmək olur.

*Yasəmən MUSAYEVA,*
*“Azərbaycan”*

# Heydər Əliyev Fondunun Pekində təşkil etdiyi konsert Çin KİV-in diqqət mərkəzində olub

Heydər Əliyev Fondunun və Xarici Ölkələrlə Dostluq üzrə Çin Xalq Assosiasiyasının təşkilatçılığı, Azərbaycanın bu ölkədəki səfirliyinin dəstəyi ilə Pekində təşkil edilən Azərbaycan-Çin dostluq konserti yerli KİV-in diqqət mərkəzində olub.




AZƏRTAC xəbər verir ki, Çinin milli xəbər agentliyi olan Sinxua, Çin Mərkəzi Televiziyası, "Jenmin Jibao", "Global Times" və "China Daily" qəzetləri, "China.org" və "China-news" internet nəşrləri, digər kütləvi informasiya vasitələri konsert haqqında ətraflı xəbərlər, reportajlar hazırlayıb yayıblar.

Materiallarda Azərbaycanın zəngin mədəniyyətinin və musiqisinin Çində tanıdılması ilə bağlı tədbirlər silsiləsindən olan konsertin iki xalq arasında dostluğu və mədəni mübadiləni möhkəmləndirdiyi qeyd edilir.

Konsertdən əvvəl çıxış edən Baş nazirin müavini Əli Əhmədovun və Ümumçin Xalq Siyasi Məşvərət Şurası Milli Komitəsinin sədr müavini Şao Xonun fikirlərinə istinadla vurğulanır ki, iki xalq arasında tarixi İpək yolu dövründən başlayan münasibətlər müasir dövrdə daha da genişlənib. Azərbaycan "Bir kəmər, bir yol" strategiyası üzərində yerləşən vacib bir ölkə kimi bu təşəbbüsün həyata keçməsində fəal iştirak edir.

Bildirilir ki, Pekinin ən böyük konsert sarayı olan İfaçılıq Sənəti Milli Mərkəzində təşkil olunan konsertdə Qara Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri Azərbaycan və Avropa bəstəkarlarının əsərlərini, Azərbaycan xalq mahnılarını, Çin ənənəvi musiqi parçalarını məharətlə ifa ediblər.

Çin Mərkəzi Televiziyası Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərovun dostluq konserti ilə bağlı müsahibəsini də yayımlayıb.

## Beynəlxalq aləm
### HADİSƏLƏR, FAKTLAR

## ABŞ Türkiyəyə "Patriot" raketləri satacaq

ABŞ administrasiyası Türkiyəyə 3,5 milyard dollar məbləğində "Patriot" zenit-raket sistemləri satmaq barədə qərar qəbul etmişdir. Bu barədə Pentaqon yanında müdafiə təhlükəsizliyi sahəsində əməkdaşlıq üzrə agentlik məlumat vermişdir.

Məlumatda deyilir ki, ABŞ Dövlət Departamenti Türkiyəni 80 ədəd MİM-104E və 60 ədəd PAC-3 raketi ilə təchiz etmək barədə qərarı təsdiqləmişdir. Bundan başqa, Türkiyə 4 ədəd AN/MQP-65 radiolokasiya stansiyası və digər avadanlıqlar alacaq.



Ağ ev administrasiyası qəbul olunmuş qərar barədə Konqresi rəsmən məlumatlandırmışdır. Qanunvericilərin hərbi müqaviləni öyrənib onu təsdiqləmək, yaxud rədd etmək üçün 30 gün vaxtı var.

Dövlət Departamentinin nümayəndəsi "Anadolu" agentliyinə bildirmişdir ki, sövdələşmə NATO-nun müdafiə səviyyəsini yüksəldəcək, alyansın raket əleyhinə müdafiə sahəsində imkanlarını möhkəmlədəcək. Agentliyin müsahibi əlavə etmişdir ki, müqavilə ABŞ-ın maraqlarına da cavab verir. Bundan başqa, Türkiyənin hava hücumundan müdafiə sistemini möhkəmlətmək üçün mühüm addım atılacaq. Ankara regiondan qaynaqlanan təhdidləri daha effektiv şəkildə aradan qaldıra biləcək.

## Belçika hökumətinin başçısı istefa verdi



Belçikanın Baş naziri Şarl Mişel parlamentin iclasında hakim koalisiya dağıldıqdan sonra istefaya çıxdığını bildirmişdir. İclası RTBF telekanalı yayımlamışdır.

Hökumətin başçısı qeyd etmişdir ki, parlamentdə irəli sürdüyü təkliflərin inandırıcı olmadığını, özünün eşidilmədiyini görmüş və bu səbəbdən yaranmış vəziyyəti qəbul etməli olmuşdur. O əlavə etmişdir ki, "istefa ərizəsi vermək barədə qərar qəbul etmişəm və dərhal Krala müraciət etmək niyyətindəyəm".

Belçika Kralı Filipp Baş naziri qəbul etmiş, amma istefa qərarını təxirə salmışdır.

Xatırladaq ki, dekabrın 9-da koalisiya hökumətində "Yeni flamand alyansı" partiyasını təmsil edən beş nazir Mişelin BMT-nin miqrasiya paktını imzalamasına etiraz əlaməti olaraq istefaya çıxmışdır. Bundan sonra hökumət koalisiyası dağılmışdır.

## Doha ilə Ər-Riyad arasında mübahisəni DTT arbitrajı həll edəcək



Dünya Ticarət Təşkilatı (DTT) Səudiyyə Ərəbistanının əqli mülkiyyət hüquqlarını pozması işi üzrə arbitraj komissiyasının yaradılması barədə Qətərin tələbini təmin etmişdir. Bu barədə Qətər Ticarət və Sənaye Nazirliyi məlumat vermişdir.

Müvafiq qərar DTT-nin mübahisələrin tənzimlənməsi komissiyasının iclasında qəbul olunmuşdur.

Qeyd edək ki, Qətər bir müddət əvvəl DTT-yə müraciət edərək Səudiyyə Ərəbistanının Qətər şirkətlərinin və vətəndaşlarının əqli mülkiyyət hüquqlarını pozması məsələsinə baxmağı xahiş etmişdir.

Bu ilin oktyabrında Səudiyyə Ərəbistanı Qətərin "BeIN Sports Arabia" və "BeoutQ Sports" telekanallarının yayımını qadağan etmişdir. Doha Ər-Riyaddan 1 milyard dollar məbləğində kompensasiya tələb edir.



## Braziliyada yanğın 600 evi məhv etdi

Braziliyanın Amazonas ştatının Manaus şəhərində yanğın təxminən 600 evi külə döndərmişdir. Bu barədə "Röyter" agentliyi xəbər verir.

Hadisə zamanı 4 nəfər yaralanmışdır. Ölənlər barədə məlumat daxil olmamışdır.

Yanğın yoxsulların yaşadıqları rayonda onlarca taxta evin alov alması ilə başlamış, sonra daş evlərə keçmişdir. 100-dən artıq yanğınsöndürən alovu nəzarət altına almaq üçün bir neçə saat çalışmalı olmuşdur.

## Yunanıstan və Makedoniyanın baş nazirləri Nobel mükafatına namizəddirlər



Yunanıstanın Baş naziri Aleksis Sipras və onun makedoniyalı həmkarı Zoran Zayev 2019-cu il Nobel sülh mükafatına namizəd göstərilmişlər. Bu barədə 2015-cil il Nobel mükafatı laureatı Uided Buşamaui məlumat vermişdir.

Yerli KİV xəbər verir ki, Buşamaui laureat hüququndan istifadə edərək təşəbbüskarlar qrupu adından Sipras və Zayevin namizəd göstərilməsi barədə ərizəni Osloda Nobel komitəsinə təqdim etmişdir.

Sipras və Zayevin namizədliyi keçmiş Yuqoslaviya Respublikasının Şimali Makedoniya Respublikası adlandırılması barədə Skopye ilə Afina arasında bağlanmış sazişlə əlaqədar irəli sürülmüşdür. Xatırladaq ki, Yunanıstan və Makedoniya bu ilin iyununda ikinci ölkənin yeni adı barədə Prespan sazişi imzalamışlar. Sazişin bağlanması Skopyenin NATO və Avropa İttifaqına yolunu açsa da, həm Yunanıstanda, həm də Makedoniyanın özündə tənqid edilir. Sənədə görə, respublika Şimali Makedoniya adlanmalıdır. Saziş sentyabrın 30-da Makedoniyada referenduma çıxarılmış, lakin faktiki olaraq müvəffəqiyyətsizliyə uğramışdır: səsvermədə seçicilərin cəmi 37 faizi iştirak etmişdir. Buna baxmayaraq, Makedoniya parlamenti ölkənin adının dəyişdirilməsi barədə konstitusiyaya zəruri dəyişikliklər üzərində işləyir. Qanunvericilik orqanında əsas qanuna dəyişikliklər barədə yekun səsvermənin gələn ilin əvvəllərində keçiriləcəyi gözlənilir.

## Sinoptiklər xəbərdarlıq edirlər...

Sinoptiklər ölkə ərazisində gözlənilən yağıntılı və əlverişsiz hava şəraiti ilə bağlı xəbərdarlıq ediblər.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən AZƏRTAC-a bildiriblər ki, Bakıda və Abşeron yarımadasında dekabrın 20-21-də hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış yağacağı, bəzi yerlərdə intensiv olacağı ehtimalı var.

Azərbaycanın rayonlarında dekabrın 20-si axşam, 21-də hava şəraitinin qeyri-sabit keçəcəyi, arabir yağış, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Yağıntının bəzi yerlərdə intensiv olacağı, çaylarda sululuğun artacağı bildirilir.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 20-21-də Abşeron yarımadasında buludlu və rütubətli hava şəraitinin üstünlüyü gözlənilir ki, bu da meteohəssas insanlarda narahatlıq hissi yarada bilər.

"Bakı Metropoliteni" QSC "Xətai" stansiyasında sağ tunel və pilon hissədə alüminium vərəqələrdən çətirin sökülməsi, müəyyən hissəsinin bərpa edilməsi və yerinə quraşdırılması işlərinin satın alınması üzrə

AÇIQ TENDER ELAN EDİR

**Tender 1 (bir) LOT üzrə keçirilir.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan (əlaqələndirici şəxs: Əlixan Osmanov; telefon: 490-00-91) ala bilərlər.

**LOT-1.** "Xətai" stansiyasında sağ tunel və pilon hissədə alüminium vərəqələrdən çətirin sökülməsi, müəyyən hissəsinin bərpa edilməsi və yerinə quraşdırılması işlərinin satın alınması

**İştirak haqqı - 150 manat**
**Hesabın adı: BAKI METROPOLITENI QSC**
**Hesab nömrəsi (IBAN) :**
**AZ98AZRT38050019440010268002 AZN**
**VÖEN: 1402871431**
**Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)**
**Kod: 501361**
**VÖEN: 9900006111**
**Müxbir hesabı: AZ02NABZ01350100000000022944**
**SWIFT BIK: AZRTAZ22**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 2 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 yanvar 2019-cu il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 04 fevral 2019-cu il saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 05 fevral 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

*Tender komissiyası*

B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası Palatanın foyesində məlumat lövhəsinin hazırlanması və dizayn işlərinin görülməsi xidmətinin satın alınması məqsədilə

*kotirovka sorğusu elan edir*

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər aşağıdakı ünvana - Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının inzibati binasına, Bakı şəhəri, Bülbül pr., 27 ünvanına (əlaqələndirici şəxs: Rüstəm Kərimov, telefon: +99412 493-50-58/285; Faks: +99412 498-12-14) müraciət edə bilərlər.

Kotirovka sorğusunda iddiaçı kimi iştirak etmək istəyənlər imzalanmış və möhürlənmiş kotirovka təkliflərini 24 dekabr 2018-ci il saat 11:00-dan gec olmamaq şərtilə təqdim etməlidirlər.

Göstərilən müddətdən gec təqdim olunan kotirovka təklifləri baxılmadan geri qaytarılacaqdır. Kotirovka təklifləri Bakı şəhəri, Bülbül pr., 27 nömrəli ünvanda, Palatanın inzibati binasında 25 dekabr 2018-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar və onların səlahiyyətli nümayəndələri zərflərin açılış prosedurunda iştirak edə bilərlər.

*Tender komissiyası*

B İ L D İ R İ Ş

"Azərbaycan İnvestisiya Şirkəti" ASC ofis texnikasının satın alınması məqsədilə

*kotirovka sorğusu elan edir*

Maraqlanan şirkətlər (+994 12) 488 80 10 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 21 dekabr 2018-ci il saat 18:00-dək qəbul olunur.

*Tender komissiyası*

## Sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatının açılış mərasimi olub

Dekabrın 19-da Bakı İdman Sarayında sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatının açılış mərasimi olub. AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışıb. Nazir müavini bildirib ki, güləşçilərimiz həmişə beynəlxalq arenada yüksək nailiyyətləri ilə xalqımızı sevindirirlər. İdmanın bu növü ölkəmizdə çox sevilir və populyardır. Ölkə çempionatında da rəqabət çox yüksəkdir.

Azərbaycanın mötəbər turnirlərə yüksək səviyyədə evsahibliyi etdiyini bildirən İ.İsmayılov ölkəmizdə respublika birinciliklərinin dünya və Avropa çempionatları səviyyəsində təşkil olunduğunu diqqətə çatdırıb. O, güləşçilərimizin "Tokio 2020" Yay Olimpiya Oyunlarında da yüksək nəticələr əldə edəcəklərinə inandığını bildirib.

Azərbaycan Güləş Federasiyasının prezidenti vəzifələrini icra edən Namiq Əliyev dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə digər sahələrdə olduğu kimi, idmanda sürətli inkişafın müşahidə olunduğunu vurğulayıb. N.Əliyev bildirib ki, güləşçilərimiz həmişə yüksək nailiyyətləri ilə fərqlənirlər. Cari ildə pəhləvanlarımız Avropa birinciliklərində 14, dünya çempionatlarında isə 6 medal qazanıblar. İki güləşçimiz isə Yeniyetmələrin Yay Olimpiya Oyunlarında fəxri kürsüdə yer alıb. Bütün bunları nəzərə alaraq cari ili Azərbaycan güləşi üçün uğurlu hesab etmək olar.

Çempionatın əhəmiyyətini yüksək qiymətləndirən N.Əliyev qaliblərin milli komandaya cəlb olunacaqlarını deyib və yarışı açıq elan edib.

Sonra Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Açılış mərasiminə cari ildə yüksək nəticələr qazanan yeniyetmə və gənc güləşçilərin mükafatlandırılması ilə yekun vurulub.

Mərasim başa çatdıqdan sonra yunan-Roma güləşçilərinin medallar uğrunda mübarizəsinə start verilib.

## Sutka ərzində atəşkəs rejimi 24 dəfə pozulub

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın Berd rayonunun Çinari kəndində və Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Azərbaycan Respublikasının Tovuz rayonunun Ağbulaq, Gədəbəy rayonunun Zamanlı kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Nəmirli, Kəngərli, Sarıcalı, Mərzili, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqelərinə atəş açılıb.

"HGC GROUP" MMC-nin adına Ağstafa rayonu, Ağstafaçayın deltasında 10.0 hektar torpaq sahəsinə Dövlət Reyestri tərəfindən verilmiş qeydiyyat nömrəsi 2618002868 olan, 1253212 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

"HGC GROUP" MMC-nin adına Ağstafa rayonu, Ağstafaçayın deltasında 30.0 hektar torpaq sahəsinə Dövlət Reyestri tərəfindən verilmiş qeydiyyat nömrəsi 2618002872 olan, 1253002 nömrəli Çıxarış itdiyi üçün etibarsız sayılır.

## Qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 161 əcnəbi saxlanılıb

Dövlət Miqrasiya Xidməti (DMX) tərəfindən son həftə ərzində qanunsuz miqrasiyaya qarşı keçirilmiş tədbirlər zamanı 161 nəfər əcnəbi saxlanılıb. Onlardan üç nəfər Daxili İşlər Nazirliyi ilə birgə keçirilmiş tədbirlər zamanı aşkarlanıb.

DMX-dən AZƏRTAC-a bildiriblər ki, saxlanılmış şəxslərdən dörd nəfərin gəlişinin bəyan edilmiş məqsədinə uyğun olmayan fəaliyyət göstərməsi, digər 157 nəfərin isə ölkə ərazisində qanunsuz yaşadığı müəyyənləşdirilib. Miqrasiya qanunvericiliyini pozan 144 nəfər barəsində inzibati qərarlar qəbul edilib. Digər 17 miqrantın Azərbaycan Respublikası hüdudlarından kənara çıxarılması istiqamətində müvafiq tədbirlər görülür.

DMX qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirlərini davam etdirir.

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Ali Məhkəmənin əməkdaşı Nisə Qasımovaya qardaşı

**BULUD QASIMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8412
Sifariş 3825
Qiyməti 40 qəpik